

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Müstəqilliyimiz: milli qürur və azadlıq ruhumuzun təcəssümü




4

SƏS

№ 192 (7117)

18 oktyabr 2024-cü il.
Qiyməti 60 qəpik

# Azərbaycan beynəlxalq tədbirə hazırlıq mərhələsində



2

**Prezident İlham Əliyev Bakı Olimpiya Stadionunun ərazisində COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olub**

## Cənubi Qafqazı "NATO rejimi" altına salmaq niyyəti və

# QƏRBİN MƏQSƏDİ




3

## Sallama çayların tərkibi NƏDİR?



8

## Seçkilərə, yoxsa toqquşmaya?



14

## Ailə planlaması: aborta "yox" deyək!



7

## Mbappe ŞOKDA - 6 ilədək həbs oluna bilər...



16

## Döyüş meydanında qazanılan Zəfər



6

# Azərbaycan beynəlxalq tədbirə hazırlıq mərhələsində

## Prezident İlham Əliyev Bakı Olimpiya Stadionunun ərazisində COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olub

Artıq BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a Azərbaycanın ev sahibliyi etməsinə sayılı günlər qalıb. COP29-a yüksək səviyyədə ev sahibliyi edəcək. Azərbaycanda hazırlıq işləri geniş vüsət alıb. Ölkəmizdə COP29-un yüksək səviyyədə keçirilməsi üçün bütün zəruri tədbirlər görülür, lazımi infrastruktur yaradılır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 17-də Bakı Olimpiya Stadionunun ərazisində COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olub. Ərazidə icra edilən tikinti-quraşdırma işləri yekun tamamlanma mərhələsindədir. Hazırlıq işlərinin sürətlə davam etdiyi nəzərə alınaraq tədbir məkanının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına (UNFCCC) tələb olunan tarixdə təhvil verilməsi planlaşdırılır. Prezident İlham Əliyevə COP29 konfransının ilk günlərində baş tutacaq Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammitinin təşkili istiqamətində atılan addımlar və icra olunan işlərlə bağlı da geniş məlumat verilib.

Dövlətimizin başçısı ərazidə yaradılmış infrastruktur və qurğular, informasiya texnologiyaları və təhlükəsizliyi sahəsində icra olunan tədbirlər, COP29 məkanının enerji ehtiyaclarının yaşıl enerji mənbələrindən qarşılanması üçün tətbiq edilən həllər, iştirakçıların qeydiyyat prosesi və digər sahələrdə görülən işlərlə yaxından tanış olub.

Dövlətimizin başçısı Media Mərkəzinə də baxıb. Burada konfrans çərçivəsində media nümayəndələrinin səmərəli işinin təşkili üçün hərtərəfli şərait yaradılır. Konfransın işıqlandırılması üçün bugünə qədər ən nüfuzlu qlobal media qurumları da daxil olmaqla çox sayda media nümayəndəsi akkreditasiyadan keçib. Prezident İlham Əliyev görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verib.







### AZƏRBAYCANDAKI ƏN BÖYÜK STADİON

Qeyd edək ki, bu tədbirlə bağlı stadionun 49 hektarlıq perimetrində Mavi Zona üzrə aparılan tikinti işləri, məkanların dizaynı, qonaqlar üçün müxtəlif xidmətlərin təşkili, paytaxtda nəqliyyat əməliyyatlarının hazırlığı, qonaqların yerləşdirilməsi prosesi və digər işlər diqqətdə saxlanılıb. 8 hektar ərazidə Yaşıl Zona qurulub. Qeyd edək ki, Bakı Olimpiya Stadionu Azərbaycandakı ən böyük stadiondur. 2015-də baş tutan Bakı-2015 1-ci Avropa Oyunlarının əsas idman məkanı kimi istifadə edilmişdir və eyni tədbirin açılış və bağlanış mərasimlərinə və atletika idman növünə ev sahibliyi etmişdir. Məkan Azərbaycan Futbol Komandasının oyunlarına və konsertlərə ev sahibliyi edir. AVRO-2020 Avropa Çempionatının qrup və final mərhələsinə ev sahibliyi edib. 2019-cu ildə burada UEFA Avropa Liqasının finalı keçirilib. Bakı Olimpiya Stadionu aralarında ”Allianz Arena”, ”Aviva Stadium”, ”Nou Kamp” və ”Santyaqo Bernabeu” kimi dünyaca məşhur stadionlar olan UEFA-nın Elit Stadionları siyahısına daxil edilib.

### ”YAŞIL DÜNYA NAMİNƏ HƏMRƏYLİK İLİ”

Ölkəmizdə beynəlxalq tədbirlərin təşkili Azərbaycan dövlətinin sülhsevər olduğunu və multikulturalizm siyasətini bir daha dünya ictimaiyyətinə təqdim edir. Beynəlxalq miqyaslı tədbirlərin keçirilməsi üçün ölkəmizə olan etimad Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin uğurlu xarici siyasəti sayəsində Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınmasının göstəricisidir. Eyni zamanda, bütün bu tədbirlər Azərbaycanın gücünü, potensialını və təşkilatçılıq qabiliyyətini bir daha nümayiş etdirir. Beynəlxalq tədbirlərə yüksək səviyyədə ev sahibliyi edən Azərbaycan COP29-un təşkili baxımından üzərinə düşən vəzifəni layiqincə yermək məqsədi ilə tədbirlər həyata keçirir. Prezident İlham Əliyevin 2024-cü ili ”Yaşıl dünya naminə həmrəylik ili” elan etməsi Azərbaycanın davamlı inkişaf istiqamətindəki qlobal səylərin önündə olmasına sadiqliyini nümayiş etdirən strateji addımdır. COP29-a hazırlıqla bağlı isə Prezidentin müvafiq sərəncamı ilə Təşkilat Komitəsi yaradılıb, əlaqədar qurumlar səfərbər edilib.

Bu mötəbər tədbirə Azərbaycanın ev sahibliyi etməsi təkcə beynəlxalq ictimaiyyətin ölkəmizə etimadının göstəricisi deyil, həm də iqlim dəyişikliyi ilə mübarizədə əhəmiyyətli işlərin aparılması üçün əlverişli fürsət və böyük məsuliyyətdir. COP29-a hazırlıq sürətlə aparılır. Ölkəmizdə hazırlıqla bağlı həyata keçirilən tədbirlər sırasında müxtəlif təşkilatlar tərəfindən təşkil olunan təlimlər də xüsusi rol oynayır.

### ”İQLİM DƏYİŞİKLİYİ İLƏ BAĞLI BU QLOBAL TƏDBİRƏ EV SAHİBLİYİ ETMƏK İSTƏYİMİZİN OLMASI BİZİM İRADƏMİZİ NÜMAYİŞ ETDİRİR”

Azərbaycan 1990-cı il ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunmuşdur. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə ”ağıllı şəhər”, ”ağıllı kənd” kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.

Əlbəttə ki, yaşıl enerjinin inkişafı və yaşıl enerjinin dünya bazarlarına çıxışı hazırda Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan Prezidenti İlham Əliyevin nümayiş etdirdiyi güclü siyasi iradə və Şərqi Avropa Qrupunun üzvü olan dövlətlərin Azərbaycanın COP29-a ev sahibliyi etmək üçün ölkəmizin namizədliyini dəstəkləməsi uğurumuzda mühüm əhəmiyyət kəsb edir. ”Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz yaşıl enerji ilə bağlıdır. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək”, - deyə Prezident çıxışlarının birində bildirib. Azərbaycan Respublikasının Prezidenti ölkəmizin işğaldan azad edilmiş torpaqlarını ”Yaşıl enerji” zonası elan edib. Bu ərazilərin 2050-ci ilədək ”Netto sıfır emissiya” zonasına çevrilməsi nəzərdə tutulur. Azərbaycanın enerji keçidinə kompleks yanaşması iqtisadi artımın və elektrik enerjisinə artan tələbatın səbəb olduğu dəyişən enerji mənzərəsində özünü göstərir. Mütəxəssislərin qənaətinə görə, ölkənin dayanıqlı enerjiyə diqqəti yaşıl enerjini təşviq edən və istixana qazı emissiyalarını azaldan xarici siyasət təşəbbüsləri sayəsində beynəlxalq miqyasda yayılır. Azərbaycan alternativ enerji mənbələrinə uğurlu keçid nümunəsidir və yaşıl enerjiyə keçidə yönəlmiş innovativ yanaşmaların tətbiqi üzrə regionda liderdir, iqlim dəyişikliyinin nəticələrinə qarşı mübarizəyə ciddi töhfə verir.

”İqlim dəyişikliyi ilə bağlı bu qlobal tədbirə ev sahibliyi etmək istəyimizin olması bizim iradəmizi nümayiş etdirir” - deyən Prezident İlham Əliyev bildirib ki, bizim tədbirə ev sahibliyi etmək və bu işə töhfə vermək istəyimiz yaşıl gündəliyimizi nümayiş etdirir.

### ÖLKƏMİZİN ENERJİSİ, GEOSİYASƏTİ ÜÇÜN SON DƏRƏCƏ VACİB TOPLANTI

Bildirək ki, COP28 ötən il Dubayda keçirildi, bu il isə dünyanın gözü COP29-a ev sahibliyi edəcək Bakıda olacaqdır. Bütün dünya ölkələrinin dövlət rəhbərləri bir araya gəlib iqlim dəyişikliyi ilə bağlı, məhz Bakıda həlli yollarını axtaracaqlar. Bu ölkəmiz üçün, onun enerjisi, geosiyasəti üçün son dərəcə vacib bir toplantı kimi əhəmiyyət daşıyacaqdır. COP29 çərçivəsində bütün dünyada gedən proseslərə, o cümlədən iqlim, həm digər yaşıl ideyalar, yaşıl proqramla bağlı məsələlərə Azərbaycan platformasında baxılacaqdır. 1995-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını ratifikasiya etdikdən sonra qlobal iqlim dəyişmələrinin mənfi təsirlərinin yumşaldılması üzrə beynəlxalq səylərə qoşulan Azərbaycan beynəlxalq ekoloji təşəbbüslərdə mühüm rol oynayıb. Dubaydakı COP28 sammitində Azərbaycanın yüksək səviyyədə təmsil olunması bunun daha bir təzahürüdür. COP28 sammitində Azərbaycanın fəal iştirakı əlbəttə ki, ölkəmizin qlobal iqlim dəyişikliyinə qarşı mübarizəyə töhfə verməsinə əsaslanır. COP29-a ev sahibliyi etmək qərarı Bakının iqlim dəyişikliyi ilə mübarizəyə sadiqliyidir. Artıq COP29-un başlamasına qısa bir zaman qalıb. Azərbaycan daha bir mötəbər beynəlxalq tədbirə uğurla ev sahibliyi edəcək.

***Zümrüd BAYRAMOVA***

# Cənubi Qafqazı "NATO rejimi" altına salmaq niyyəti və QƏRBİN MƏQSƏDİ

***Cənubi Qafqaz uğrunda, regionda özünə "yer etmək" uğrunda Qərb çox "canfəşanlıq" edir və davamlı şəkildə müdaxilələr etməyə can atdığı da göz önündədir. Qərbin məqsədinin bütün Cənubi Qafqazı "NATO rejimi" altına keçirmək və regionu NATO müttəfiqinə çevirmək olduğu da artıq heç kim üçün gizli deyil. Hətta erməni cəmiyyəti belə özünün havadarı sandığı, hər an sığınmaq belə istədiyi Qərbin məqsədini başa düşərək narahatlıq keçirir və bu narahatlıq Ermənistana məxsus mətbuat səhifələrində də müşahidə edilir.***




## Qərbi regiona dəvət edənlər belə təşviş içindədirlər və onların ifadələri narahat olduqlarını təsdiq edir

Bir çox erməni siyasətçilər belə həyəcan təbili çalırlar ki, Qərbin məqsədi Cənubi Qafqazı "NATO rejimi" altına keçirməkdir və regionu NATO müttəfiqinə çevirmək üçün Ermənistandan alət olaraq istifadə olunur. Hətta qeyd olunur ki, Ermənistanın özü də Qərbin oyunlarına alət olmağı qəbul edir və eyni zamanda Qərbin planlarının hansısa ad altında keçirilməsi də müşahidə edilir. "Rusiyanın reaksiyasından qorxaraq, bu hərəkətlər regionun Avropa İttifaqı ilə yaxınlaşması adı altında həyata keçirilməkdədir. Bu baxımdan Avropa müşahidə missiyasının tətbiqi tamamilə təsadüfi deyil. Əvvəlcə bu missiyanın sülhməramlılar rolunu oynayacağı nəzərdə tutulurdu, lakin Azərbaycanın reaksiyası və proseslərin Qərbin hazırladığı planlara uyğun gəlməyən ssenari üzrə gedişi məsələnin mülki formada müvəqqəti həllinə vadar etdi. Buna baxmayaraq, biz görürük ki, missiyanın tərkibi artır, funksiyaları genişlənir. Bundan əlavə, hazırda kəşfiyyat sahəsi olan Ermənistan tamamilə Qərb sisteminin təsiri altındadır və Ermənistan Müdafiə Nazirliyi sisteminə ABŞ nümayəndəsi belə daxil edilib. Mən hətta NATO təlimlərində iştirakın artırılması yolu ilə NATO standartlarına mərhələli keçid prosesindən danışmıram", deyə Beşinci Kanalın efirində bildirən fövqəladə və səlahiyyətli səfir Cyunik Ağacanyan əslində, bir həyəcan təbili çalıb.

Müharibənin belə Qərbin Cənubi Qafqaza burun soxması səbəbindən baş verdiyini deməklə, bundan sonra da, yəni bu gedişlə yenə də müharibə təhlükəsini diqqətə çatdıran Ağacanyan erməni dövlətçiliyinin mövcudluğunun belə sual altında olduğunu bildirir. O, hazırkı hakimiyyəti eləcə də Qərbə üz tutanları, sığınanları günahlandırır və açıq şəkildə bildirir ki, hər hansı bir Qərb strukturunun himayəsi altına keçmək ideyası ermənilərin qarşılaşdıqları itkilərə və təhdidlərə haqq qazandıra, eləcə də uğursuzluqları, yanlışlıqları əsaslandıra bilməz. Hətta açıq şəkildə qeyd edir ki, Ermənistanın nələrlə, daha doğrusu hansı nəticələrlə qarşılaşa biləciyini belə ABŞ gizlətmir.

Digər bir erməni siyasətçi, politoloq Sergey Melkonyan isə öz Teleqram kanalında NATO və regionun digər ölkəsi olan Azərbaycanla əməkdaşlığın intensivləşdirilməsi məsələsinə toxunub. O, bu ilin oktyabr ayının cəmi dörd günü ərzində Azərbaycan və NATO nümayəndələri arasında iki yüksək səviyyəli görüş keçirildiyini qeyd edərək həyəcanını və narahatlığını da gizlətməyib. "Oktyabrın 9-da Azərbaycan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Vəliyev NATO-nun Beynəlxalq Hərbi Qərargahının baş direktoru Adamçak ilə görüşüb. NATO zabitləri Azərbaycan hərbçilərinə təlim keçməyə davam edəcək, Bakının özü isə NATO ilə hərbi əməkdaşlığı inkişaf etdirəcək. Cəmi dörd gün əvvəl, oktyabrın 5-də Azərbaycanın NATO-dakı nümayəndə heyətinin rəhbəri Hüseynzadə alyansın nümayəndələri ilə görüş keçirib. Tərəflər Azərbaycan-NATO tərəfdaşlığının perspektivlərini müzakirə ediblər", sözlərini politoloq Sergey Melkonyan öz Teleqram kanalında yazır.

Görünən odur ki, Qərbi regiona dəvət edənlər belə təşviş içindədirlər və onların ifadələri narahat olduqlarını təsdiq edir. Təsdiq edir ki, haylar içərisində azca da olsa ağlı başında olanları Qərbin müdaxiləsinin müsbət nəticələr verməyəcəyini dərk edirlər. Əslində, niyə də dərk etməməlidirlər axı? Axı Qərbi regiona soxmağa çalışan hayların hamısı bu həqiqəti dərk etməli idilər. Ən azından Gürcüstan nümunəsi bir örnək, bir dərs olmalı idi haylar üçün. Haylar görməli idilər Gürcüstanda baş verənləri və aralarında bəziləri elə həmin Gürcüstan nümunəsini gördükləri üçün belə həyəcan təbili çalırlar. Hər halda Saakaşvili ilə bağlı reallıqlar da ermənilər üçün sirr deyil. Onu guya Qərbin dəstəklədiyi də haylara bəllidir və indi həmin dəstəyin olmadığını da görürlər. Görürlər ki, bir zamanlar öz oyunları üçün nəinki Saakaşvilini, bütövlükdə Gürcüstanı alət edən Qərb indi Saakaşvilini də, onun ölkəsinin düşdüyü durumu da hesaba almır. Qərbin bir zamanlar guya dəstəklədiyi Saakaşvili zindanda acınacaqlı durumdadır, amma bunu guya heç görən də yoxdur. Niyə indi Saakaşvili dəstəklənmir? Niyə Gürcüstan Qərbin dəstəyini görmür? Çünki artıq istifadə edilən edilib və bundan sonrası Qərb üçün maraqlı da deyil. Bax elə bu reallıqları və bu həqiqətləri görənlər həyəcan təbili çalırlar.

## Qərb Cənubi Qafqaz naminə, sülh, təhlükəsizlik üçün çalışmır və tamamilə başqa niyyətlər, başqa məqsədlər üçün planlar qurulur

Görünən odur ki, Cənubi Qafqaz barədə Qərbin xüsusi planları var və regionu "NATO rejimi" altına salmaq niyyəti də aydın olur. Aydın olur ki, Qərb heç də Cənubi Qafqaz naminə, sülh, təhlükəsizlik üçün çalışmır və tamamilə başqa niyyətlər, başqa məqsədlər üçün planlar qurulur. Əgər həqiqətən də Qərb üçün Cənubi Qafqazın təhlükəsizliyi, yaxud regionda sülhün, əmin-amanlığın bərqərar olunması maraqlı olsa idi, o zaman Azərbaycan və Ermənistan arasında ikitərəfli danışıqların ən azından tərəfdarı olardı. Amma biz bunu müşahidə etmiriksə və əksini görürüksə, deməli, Qərbin daha başqa niyyəti, tamamilə başqa məqsədi var. Təbii ki, bu coğrafiyada, yəni regionda yaşayanlar, məskunlaşanlar üçün Qərbin niyyətinin və məqsədinin nə olduğu olduqca maraqlıdır. Həqiqətən də maraqlıdır, görəsən, Qərbin əsl niyyəti və əsl məqsədi nədən ibarətdir?

Qərb indi Rusiya ilə Ukrayna arasında olan müharibəyə görə Kremlin başının qarışdığı qənaətindədir və buna görə də daha aktiv şəkildə regiona müdaxilə etmək niyyətindədir. Sözsüz ki, Qərb elə hesab edir ki, Moskva daha çox Ukrayna məsələsi ilə məşğuldur və Cənubi Qafqazı unudub, amma bərk yanılır. Yanıldığını da artıq hiss edir və başa düşür. Başa düşür ki, Rusiya heç bir halda Cənubi Qafqazı ələlxüsus Qərbə bağışlamaq niyyətində ola bilməz. Qərb görür ki, Kreml üçün də ermənilər bir alət hesab olunur və region uğrunda mübarizədə Rusiya da Ermənistandan istifadə edir, özü də digərlərindən daha mütəmadi şəkildə bunu edir. Qərb onu da bilir ki, haylar hər zaman rusların aləti olub və regionda yerləşdirilmələri də məhz rusların sayəsində reallaşıb. Üstəlik, hal-hazırda mövcudluqlarının belə Rusiyanın əlində olması faktını da Qərb çox yaxşı başa düşür və qəbul da edir. Onu da qəbul edir ki, Kremlin Ermənistanda çox ciddi təsir imkanları, İrəvanı alt-üst etmək üçün belə rıçaqları da var. İndi "beşinci kolon" kimi tanınanların məhz Rusiyaya "işlədikləri" qənaətində olanlar arasında Qərb siyasətçiləri də az deyil. Daha dəqiq desək, Ermənistanın məhz Moskvanın əl oyuncağı, marionet olduğu belə Qərb üçün sirr deyil. Deməli, "Rusiyanın reaksiyasından qorxaraq, bu hərəkətlər regionun Avropa İttifaqı ilə yaxınlaşması adı altında həyata keçirilməkdədir", deyən fövqəladə və səlahiyyətli səfir Cyunik Ağacanyanın nəyə eyham vurduğu bəlli olur. Bəlli olur ki, Qərb məhz Rusiyanın Ermənistanı alət edərək regionda öz mövqeyini qoruduğunu başa düşür və hətta bundan ehtiyat edərək, qorxaraq regiona soxulmaq üçün bəhanə axtarır və müxtəlif adlar altında girməyə çalışır. Bunu artıq ermənilər özləri də başa düşməyə başlayıblarsa, deməli, reallıqlar tam çılpaqlığı ilə ortaya çıxmaqdadır və niyyətin, məqsədin çirkin olmayacağına zərrə qədər də ümid yeri qalmır. Görünən odur ki, Qərbin niyyəti Cənubi Qafqazı "NATO rejimi" altına salmaqdır və məqsəd də regiona soxulmaq, özünə yer etməkdir.

## Cənubi Qafqazla bağlı çirkin niyyətlərin və hansısa məqsədin reallaşması xam xəyallardır

Qərbin regionu "NATO rejimi" altına salmaq niyyətinin, eləcə də Cənubi Qafqaza soxulmaq kimi bir məqsədinin olması heç də o demək deyil ki, kimlərinsə arzularının çin olmasına imkan veriləcək. Bəli, Ermənistan Qərb üçün alət hesab oluna bilər. Ola bilsin ki, hələ bundan sonra da rəsmi İrəvan Qərbin marioneti kimi oynadılar və hansısa istiqamətə yönləndirilər. Hətta erməni baş nazir Nikol Paşinyan belə bir marionet kimi Qərbin oyuncağı olaraq, ölkəsinə rəhbərlik edə, diqtə olunanları reallaşdırmağa çalışa bilər. Amma onun timsalında bütün marionetlər həmin yanlışlıq istiqamətində yalnız çalışar, onu reallaşdıra bilməz. Çünki regionun Azərbaycan kimi lider dövləti və həmin dövlətin də cənab İlham Əliyev kimi qətiyyətli, siyasi iradəyə və diplomatik uzaqgörənliyə sahib olan Prezidenti, lideri var. Heç bir halda regionun müqəddəratı bir neçə əldəqayırma erməni siyasətçisinin marionet kimi özünü aparmasına, alət olaraq meydana atılmasına qurban verilməyəcək.

İndi artıq haylar özləri də başa düşürlər ki, onları idarə etmək, regionda mövqe əldə etmək üçün onların özlərindən istifadə edirlər və artıq alətə çevrilmələri fonunda xilas olmaları üçün Azərbaycan kimi qüdrətli bir dövlətə bərk ehtiyacları var. Həqiqətən də belədir və regionda söz sahibi olan Azərbaycan elə bir qüdrətə, elə bir potensiala malikdir ki, hansısa ölkə, bütövlükdə Qərb regionun taleyi ilə bağlı qərar qəbul edə bilməz. Bu gün Azərbaycanın uğurlarına qarşı Qərbin dözümsüzlük nümayiş etdirməsi də təsadüfi deyil və məhz qeyd olunanlara görədir. Məhz USAİD, NED kimi qurumların, təşkilatların əli ilə ölkəmizə soxulmaq niyyəti də bundan qaynaqlanır və Azərbaycana təsir etmək, təzyiq göstərmək, hətta təhdid belə niyyətinə düşmək də bu baxımdan təsadüfi və səbəbsiz deyil. Amma Qərb görür ki, rəsmi Bakı onların bütün planlarını alt-üst etməyə qadirdir və dəfələrlə həmin planların qarşısının alınması təsdiq edir ki, Azərbaycana təsir və təzyiq, eləcə də təhdid cəhdləri nəticəsiz qalacaq, mənasız olduğu üçün də nəyə isə ümid etməyə də dəyməz. İndi həmin rakursdan, həmin prizmadan baxdıqda görürük və əmin oluruq ki, Cənubi Qafqazla bağlı çirkin niyyətlərin və hansısa məqsədin reallaşması sadəcə olaraq xam xəyallardır.

***İnam Hacıyev***

# Müstəqilliyimiz:

## milli qürur və azadlıq ruhumuzun təcəssümü

***Azadlıq, müstəqil olmaq çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqının əsrlər boyu ən böyük amalı, arzusu, mübarizə yolu olub. Elə buna görə də Ümummilli Lider Heydər Əliyev ölkəmizdə 28 may 1918-ci ildə yaradılan bütün türk-müsəlman dünyasının ilk müstəqil demokratik respublikasını yüksək qiymətləndirir, cümhuriyyət tarixini "İstiqlaliyyətimizin sübhü" adlandırırdı.***

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ölkəmizin çoxəsrlik ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi idi. Xalqımızın müstəqillik əzmini nümayiş etdirən Azərbaycan Xalq Cümhuriyyəti öz varlığı ilə XX əsr dünya siyasi arenasına səs saldı. Artıq bizləri o sübhdən 106 illik bir zaman fasiləsi ayırır. Ötən illərdə o istiqlalın canımıza, qanımıza hopan şirinliyi bizi mübarizəyə səsləyib, xalqımıza yenidən müstəqillik bəxş edib.

"... Yüz il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq demokratik respublika yaradılmışdır. Biz fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıb və bir daha bütün dünyaya nümayiş etdirib ki, Azərbaycan xalqı böyük xalqdır, istedadlı xalqdır, azad xalqdır. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və iki il ərzində fəaliyyəti tarixi hadisə idi. Azərbaycan o ölkələrdəndir ki, hələ yüz il bundan əvvəl ən ülvi demokratik dəyərləri nəinki bəyan edib, öz praktiki fəaliyyətində onları təmin edib. Bugünkü Azərbaycan, müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin bütün demokratik ənənələrinə sadiqik və bu ənənələri yaşadırıq", - deyən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 15 oktyabr 2021-ci ildə imzaladığı "Müstəqillik Günü haqqında" Azərbaycan Respublikasının Qanunu ilə mayın 28-i Müstəqillik Günü, 1991-ci ildə ikinci dəfə müstəqilliyimizi qazandığımız gün-oktyabrın 18-i isə Müstəqilliyin Bərpası Günü elan edildi. Qanunda deyilir: "2021-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsinin 30 ili tamam olur. Azərbaycan xalqı 1991-ci ildən sonra ilk dəfə bu bayramı tam fərqli olaraq, öz ərazi bütövlüyünü bərpa etmiş qalib xalq kimi qeyd edir. Bu baxımdan dövlətçilik tariximizdə müstəsna əhəmiyyətli mərhələlərin, xüsusən müstəqilliyin əldə edilməsi və bərpası kimi tarixi günlərin onların mahiyyəti və məzmununa uyğun daha dəqiq ifadə olunması böyük önəm kəsb edir".

### 33-ü deyil, 106-nı qeyd edəcəkdik

Tarixdə həmişə mübariz və qəhrəman xalqlar yaşayırlar. Həmin xalqlar isə tarix yaradır və onun səhifələrinə şərəf salnaməsi yazırlar. Belə qəhrəman xalqlardan biri də Azərbaycan xalqıdır. Azərbaycan Xalq Cümhuriyyəti bu xalqın yaratdığı tarix, onun 23 aylıq gərgin, çətin bir şəraitində fəaliyyəti isə həmin tarixin şərəf səhifələridir. O dövrün çətinlikləri - kənardan uzanan əllər, müdaxilələr, təxribatlar, təzyiqlər olmasaydı, bu gün müstəqilliyimizin bərpasının 33 ilini deyil, müstəqilliyimizi əldə etməyimizin 106 yaşını qeyd edəcəkdik.

Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti ilə bağlı yaranan çətinlikləri təhlil edən Ümummilli Liderimiz deyirdi: "Azərbaycanın ətrafında və daxilində gedən proseslər bu respublikanın, hökumətin öz normal fəaliyyətini davam etdirməsinə imkan verməmişdir. Rusiyadakı bolşevik hökuməti keçmiş çar Rusiyasının bütün ərazisində bolşevik üsul-idarəsini qurmağa cəhd göstərərək, Azərbaycanda istilaçılıq hərəkətlərinə başlamışdı. Respublikanın daxilində o cəhdləri dəstəkləyən qüvvələr azərbaycanlı olmamışlar. Eyni zamanda, Cümhuriyyətin hökumətində və onun yaratdığı parlamentdə də daxili ziddiyyətlər, çəkişmələr onun süqut etməsinə gətirib çıxarmışdır".




Tarixçi alimlər qeyd edirlər ki, XX əsrin əvvəllərində, dəqiq desək, cümhuriyyətin qurulmasından başlayaraq onun süqutunadək erməni silahlı birləşmələri Qarabağda, Naxçıvanda, Zəngəzurda dayanmadan Azərbaycan kəndlərini təhdid edirdilər. Qarabağda hər an üsyanlar qaldırırdılar. Yeri gəlmişkən, qeyd edək ki, 1919-cu ilin fevral ayında Qarabağ General-Qubernatorluğu da yaradılmışdı və Xosrov Paşa bəy Sultanov Qarabağ general-qubernatoru təyin olunmuşdu. O, Qarabağda ermənilərin avantürist planlarının qarşısının alınmasında çox mühüm işlər görürdü. Lakin erməni və rus təxribatçılarının nəyin bahasına olursa-olsun, cümhuriyyətin məhv edilməsi haqqındakı planları qarşısında bu müstəqillik davam edə bilmədi və cəmi 23 ay yaşayan türk-müsəlman dünyasının ilk demokratik respublikası düşmən qüvvələrin təsiri ilə 1920-ci ilin 27 aprelində iflasa uğradı. Xalq yenidən 70 il müstəmləkə rejimində yaşamaq məcburiyyətində qaldı. 70 ili də beləcə ötən XX əsr, ümumilikdə, tariximizin ən keşməkeşli səhifələrini təşkil edən yüzilliyin böyük bir hissəsi kimi tarixə yazıldı. 1991-ci ildə isə müstəqilliyimiz bərpa olunan respublikamızda Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dalğalanmağa başladı.

### Müstəqilliyin əbədiliyinə doğru

Dahi şəxsiyyət Heydər Əliyevin 1993-cü ildən hakimiyyətə qayıdışı ilə müstəqil dövlətimizin təməli möhkəmləndirildi, müstəqilliyimiz əbədilik qazandı. Ulu öndərin rəhbərliyi ilə hələ 1990-1993-cü illərdə Naxçıvandan başlanan müstəqillik yolu Azərbaycanın siyasi mühitində aparıcı qüvvəyə çevrilib, milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı. Ümummilli Liderimiz tərəfindən milli dövlət strukturlarının yaradılması gündəmə gətirildi. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı ikinci dəfə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə muxtar respublikanın Dövlət bayrağı kimi qəbul edildi. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında bu bayrağın Azərbaycan Respublikasının rəsmi dövlət bayrağı kimi qəbul edilməsi haqqında vəsatət qaldırdı. 1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxaraq bayrağın Azərbaycan Respublikasının Dövlət Bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul etdi. Azərbaycanın yeni Dövlət gerbinin hazırlanması və təsdiqi məsələsinə də 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində baxıldı. Üçrəngli milli bayrağın bərpası və qəbulu ilə yanaşı, Dövlət gerbi və Dövlət himninin qəbul edilməsi üçün müsabiqə elan olunması qərara alındı. Bu məsələləri kompleks halda həll etmək üçün Azərbaycan Respublikasının Ali Sovetinə müraciət olundu. Dahi şəxsiyyətin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "sovet sosialist" sözlərinin çıxarılması və digər tarixi qərarlar da müstəqillik yolunda irəliləyən Azərbaycanın dövlətçilik tarixində mühüm yer tutur.

Ümummilli Lider Heydər Əliyevin "Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı əbədidir və əbədi olacaqdır!" fikri indi dünya dövlətləri sırasında günbəgün mövqeyini gücləndirən müstəqil Azərbaycanın simasında bir daha öz təsdiqini tapır. Bu gün də müstəqil Azərbaycanımız etibarlı əllərdədir. Azərbaycan xalqı çox çətinliklə əldə etdiyi bu qiymətli sərvətin daimiliyi üçün, lazım gələrsə, canından belə keçməyə hazırdır.

### Müstəqilliyi qorumaq onu qazanmaqdan dəfələrlə çətin imiş

Azərbaycan tarixini, xüsusilə də bu tarixin hər birimizə yaxın olan mücadilə və mübarizələrlə dolu XX əsr səhifələrini vərəqləyərkən gözlərimiz qarşısında müstəqillik yolunda axıdılan qanlar, itirdiklərimiz canlandıqca, düşünürsən ki, müstəqil olmaq heç də asan deyilmiş. Müstəqilliyi əldə etdikdən sonra yaranan vəziyyətlə tanış olduqda, ona uzanan əlləri, gözügötürməyənlərin təxribatlarını gördəndə isə belə bir qənaətə gəlmək olur ki, həqiqətən də, müstəqilliyi qorumaq onu qazanmaqdan dəfələrlə çətin imiş. Hər birimizə məlumdur, 1991-ci ildə müstəqilliyimizin bərpasından sonra ölkəmiz yenə də gərgin ziddiyyətlərlə üz-üzə dayanmışdı. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin məhvi üçün hazırlanmış plan və ssenarilərlə 1991-ci ildəki müstəqilliyin iflası üçün hazırlanmış planlar tamamilə eynilik təşkil edirdi. Belə bir dövrdə müstəqilliyimizi yenidən itirmək təhlükəsi qarşısında qalmışdıq. Zaman sübut etdi ki, Ulu Öndərimiz o zaman Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlməsəydi, müstəqilliyimizin taleyi eynilə cümhuriyyətimizin taleyinə bənzəyəcəkdi. Məhz Onun uzaqgörənliyi, əzmkarlığı, məsləhətkeşliyi, ideyaları ilə müstəqilliyimiz qorundu, yaşadı, əbədiləşdi.

### 100 ilə bərabər 33 il

Artıq müstəqilliyimizin bərpasından 33 il ötür. Ötən bu dövrdə ölkəmizdə 100 ilə bərabər işlər görülüb. 2020-ci ildə əldə etdiyimiz Qarabağ Zəfəri isə bu işlərin zirvəsi oldu. Bəli, biz Qələbə qazandıq. Əslində 1990-cı illərin Birinci Vətən müharibəsi nə zamansa İkinci Vətən müharibəsinin olacağına şübhə yeri qoymamışdı. Xalq bir gün öz əzəli torpaqlarını geri alacaqdı. Həmin günün Ulu Öndərin mənəvi varisinin, hər bir azərbaycanlının ümid bəslədiyi liderinin rəhbərliyi ilə reallaşması isə Azərbaycanda müstəqilliyimizin bərpasının ilk illərindən həyata keçirilən siyasətin uğurla davam etdirildiyini təsdiqlədi. 2020-ci il sentyabrın 27-dən başlayıb noyabrın 10-da bitən 44 günlə təsdiqlədi. Tarixə meydan oxuyan, dünyaya kimliyimizi göstərən 44 günlə. Azərbaycanın döyünən ürəyinə-Qarabağına, bir parçasına qovuşduğu, 30 illik bir həsrətin, nisgilin bitdiyi anla təsdiqlədi.

10 noyabr 2020-ci il Ali Baş Komandanımız, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Milli Ordumuzun Azərbaycan tarixində yazdığı yeni salnamə ilə tarixə düşdü. 44 gündə torpaqlarımızın azad olunması ilə bağlı xəbərləri tək Ali Baş Komandandan almağımız bizim bir yumruq olduğumuzun, dövlət başçısının ətrafında sıx birləşdiyimizin sübutu oldu. Ölkəmizdə 43 gün davam edən müharibənin 44-cü günü qələbə bəxş etdi millətimizə. Şiddətli döyüşlər getdi Qarabağ torpaqlarında. Şəhidlər verdik, ürəyimiz parçalandı, qazilərimiz oldu. Lakin bir-birinin ardınca torpaqlarımızı erməni nankorlarından geri aldıq. Füzulimiz, Zəngilanımız, Cəbrayılımız, Qubadlımız, Şuşamız, Ağdamımız, Kəlbəcərimiz, Laçınımız erməni tapdağından xilas edildi, hüriyyətinə qovuşdu. Azərbaycan Milli Ordusu Ali Baş Komandanımızın rəhbərliyi ilə dünyanı heyrətə gətirən döyüş taktikası həyata keçirdi. 2023-cü ilin 19-20 sentyabrında isə 44 günlük Vətən müharibəsinin davamı olaraq Xankəndidə keçirilən birgünlük antiterror əməliyyatları ilə ermənilərin burada illər uzunu yaratdığı terror yuvaları tamamilə darmadağın edildi. Bununla da Azərbaycanın konstitusiya quruluşu, ərazi bütövlüyü təmin edildi. Böyük Zəfər ərazi bütövlüyümüzün bərpasını reallaşdırdı. Deməli, müstəqilliyi qorumaq, həqiqətən də onu qazanmaqdan qat-qat çətin imiş.

Təbii ki, müstəqilliyimizin yaşı artdıqca, ölkəmizin inkişafı daha da sürətlənəcək. Və gün o gün olacaq ki, müstəqilliyimizin 50, 100 illik yubileylərini qeyd edəcəyik. Həmin dövrlərdə qürurla müstəqilliyimizdən, 30 ildən sonra ərazi bütövlüyümüzü bərpa etməyimizdən, bu xalqın böyük şəxsiyyətlərindən bəhs edəcəkəyik. İstiqlaliyyətimizin sübhü olan müstəqillik tariximizin başlanğıcı hələ neçə-neçə əsrlərə öz işığını salacaq. Müstəqilliyimizin bərpası ilə mübarizliyini, əzmini, qürurunu nümayiş etdirən xalqımız isə bu müstəqilliyin işığında gələcəyə doğru iftixarla irəliləyəcək.

***Mətanət Məmmədova***

# Vətən müharibəsinin 22-ci günü:
# Xudafərində Azərbaycan bayrağı qaldırıldı

Dörd il əvvəl Azərbaycan öz tarixi, əzəli-əbədi torpaqlarında bütün beynəlxalq təşkilatlar tərəfindən tanınan əraziləri uğrunda mübarizə aparırdı. Azərbaycanın atdığı hər bir addım beynəlxalq hüquq norma və prinsiplərinə əsaslanırdı. Bütün proseslərdə, o cümlədən danışıqlarda da Azərbaycan konstruktiv və ardıcıl mövqe nümayiş etdirirdi. Hərtərəfli məğlubiyyətə uğrayan işğalçı Ermənistan hakimiyyəti məğlubiyyətini ört-basdır etmək üçün ciddi təxribatlara əl atırdılar. İşğalçı Ermənistanın ölkəmizə qarşı təxribat hücumları, hiylələri, məkri Azərbaycanı öz yolundan döndərə bilmədi. Qüdrətli Azərbaycan Ordusunun qarşısında tab gətirə bilməyən xain düşmənlər hərbi maşınlarını, silah-sursatlarını, hətta bayraqlarını belə döyüş meydanında










qoyub qaçırdılar. Haqq işi uğrunda mübarizəyə qalxan Azərbaycan isə tutduğu yoldan dönmədi. Azərbaycan bütün dünyaya güclü dövlət və güclü ordusunun olduğunu, Dövlət-Ordu-Xalq birliyini nümayiş etdirdi. Hər kəs inanırdı ki, tezliklə üçrəngli bayrağımız işğal altında olan ərazilərimizdə dalğalanacaqdır.

Vətən müharibəsinin 22-ci günü. Hər gün qələbə xəbərləri alırdıq. Böyük zəfərlərə imza atan müzəffər ordumuz tarixi abidəni - Xudafərini öz sahibinə qovuşdurdu. "Azərbaycan Silahlı Qüvvələri qədim Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağını qaldırdılar. Eşq olsun Azərbaycan xalqına! Qarabağ Azərbaycandır!" Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev 2020-ci ilin 18 oktyabr tarixində özünün rəsmi "Twitter" səhifəsində bildirmişdir.

Vahid Azərbaycan rəmzi kimi qəbul edilən Xudafərin körpüsü üzərindən də Azərbaycan bayrağı dalğalandırıldı. 44 günlük Vətən müharibəsi Zəfər tariximizi yazaraq, qısa zaman kəsiyində bizləri böyük tarixi qələbəyə apardı. Bu qələbəni qazanmağımız 44 gün ərizində olsa da, bu tarixə qədər Azərbaycan böyük yol keçmişdir. Azərbaycan Prezidenti, Ali Baş Komandan bu qələbə sevincini bizlərə yaşatdı. Sentyabrın 27-dən başlayaraq, vətən torpaqlarının müdafiəsinə hazır olan Azərbaycan oğulları işğalda olan torpaqlarımızı azad etdilər. Qələbə soraqları hər bir Azərbaycan övladını sevindirirdi. Ali Baş Komandanın qətiyyətli mövqeyi ordumuzda, əsgərlərimizdə böyük ruh yüksəkliyi yaratmışdı.

### İLLƏR BOYU BİR ÇOX SOYDAŞIMIZ VƏTƏN HƏSRƏTİ İLƏ YAŞAYIB!

"Bu gün bizim ordumuz əzəli Azərbaycan torpaqlarını işğaldan azad etməklə milyonlarla azərbaycanlının arzularını həyata keçirir". Bu barədə dörd il əvvəl 18 oktyabr tarixində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi "Instagram" hesabında edilən paylaşımda deyilirdi: "Azərbaycan Ordusunun növbəti qələbəsi! Füzuli şəhəri və Füzuli rayonunun bir sıra kəndləri işğaldan azad edilib. İllər boyu bir sox soydaşımız Vətən həsrəti ilə yaşayıb! Nə qədər həmvətənimiz doğma diyarını heç olmasa bir dəfə də olsun yenidən görmək arzusunda idi! Bu gün bizim ordumuz əzəli Azərbaycan torpaqlarını işğaldan azad etməklə milyonlarla azərbaycanlının arzularını həyata keçirir. Bu, ədalətin təntənəsidir! Ona görə ki, bu yerlər bizim doğma torpaqlarımızdır, əcdadlarımızın torpaqlarıdır. Hər bir Azərbaycan əsgərinin və zabitinin həyatı və sağlamlığı üçün dua edirəm. Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!"

Həmin zamanda milyonlarla insanlara qələbə sevincini yaşadan Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevə ölkəmizin hər bir yerindən, dünya ölkələrində yaşayan soydaşlarımızdan minnətdarlıq dolu məktublar gəlirdi. "Cənab Prezidentim, Siz Azərbaycan tarixinin ən şanlı zəfərinin banisi kimi böyükdən kiçiyə milyonların qəlbində taxt qurmuş bir qəhrəmansınız" - deyə Kəlbəcər sakini yazırdı: "İllər ərzində apardığınız uğurlu xarici siyasətiniz, qətiyyətli addımlarınız, möhkəm iradəniz nəinki düşməni, hətta onun havadarlarını belə susmağa məcbur edib. Azərbaycan xalqının 27 illik susqunluğunu haqq səsinizlə dünya ictimaiyyətinə çatdırdınız. İndi düşmən anlayır ki, ədalətin səsi yüksəlir, susmaq növbəsi onlardadır. İndi hər kəs anlayır ki, Qarabağ Azərbaycandır. Mən də bir şəhid qardaşıyam, məzarına belə həsrət qaldığım qardaşımın qisasının alındığını gördükcə sanki qəlbimdəki sönməyən alova su çilənir. Ümidvaram ki, neçə belə oğulların uğrunda şəhid olduğu Vətən torpağının hər bir qarışında Sizin rəhbərliyiniz altında şanlı bayrağımız dalğalanacaq. İgidlərin narahat ruhları rahatlıq tapacaq. Eşq olsun Azərbaycan əsgərinə! Eşq olsun məğrur Ali Baş Komandanımıza!".

Ali Baş Komandanının rəhbərliyi ilə aparılan əks-hücum əməliyyatlarını xalqımız diqqətlə izləyir, uşaqdan böyüyə bütün xalq Azərbaycan ordusunun, Cənab Prezidentin ətrafında sıx birləşmişdi.

### TARİXİ ABİDƏ ÖZ SAHİBİNƏ QOVUŞDU

Cəbrayıl rayonunda yerləşən bu körpü haqqında ilk məlumat VIII-IX əsrlərə aiddir. Xudafərin körpüsü Cənubi Azərbaycanla Şimali Azərbaycanın orta əsr şəhərlərini birləşdirən, karvan yolunun üstündə tikilib. O, həm də mühüm hərbi-strateji əhəmiyyət daşıyır. Araz çayının ən dar, qayalıqla əhatələnən yerində inşa edilmiş ilk körpü VIII əsrin sonu - IX əsrin əvvəllərindən başlayaraq, XIX əsrə kimi fəaliyyət göstərmişdir. Kərpic körpü isə XII əsrdə tikilmişdir. Körpünü inşa etdirən şəxsin adı barədə tarixi mənbələrdə dəqiq yazılı məlumat yoxdur. Araşdırmaçıların çoxunun fikrincə, hər iki körpünün dayaqları çayın ortasında olan təbii sal daşlar üzərində qurulduğundan onlara "Xudafərin" adı verilib. Araz çayı üzərində salınan iki Xudafərin körpüsündən birincisi "Baş Xudafərin körpüsü" adlanır. Onun uzunluğu 130, eni 6, hündürlüyü isə 12 metrdir. İkinci körpü isə 15 aşırımlı olmaqla uzunluğu 200, eni 4,5 metr, hündürlüyü 10 metrdir.1993-cü ildə mənfur ermənilərin ərazimizə soxulması nəticəsində körpüyə ciddi zərər dəyişmişdir, hazırda körpünün müəyyən hissəsi durur.

Oktyabrın 18-i tariximizə daha bir şanlı gün kimi yazıldı. Cəbrayıl rayonunda yerləşən tarixi Xudafərin körpüsünün üzərində 27 il sonra üçrəngli Azərbaycan bayrağı ucaldıldı. Vətən Müharibəsində böyük zəfərlərə imza atan müzəffər ordumuz tarixi abidəni öz sahibinə qovuşdurdu. Bu müjdəli xəbəri Azərbaycan xalqına Prezident, Ali Baş Komandan İlham Əliyev çatdırdı.

Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan Ordusu XXI əsrin yeni hərbi təcrübəsini nümayiş etdirdi. Vətən müharibəsi bizim tam qələbəmizlə başa çatdı və müstəqil Azərbaycan daha böyük uğurlara imza atdı. Qarabağ Azərbaycandır!

*Zümrüd BAYRAMOVA*

# Döyüş meydanında qazanılan Zəfər

Son illər ölkəmizin iqtisadi qüdrətinin artması milli ordumuzun möhkəmlənməsinə də geniş imkan yaradıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına səbəb oldu. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılıb. Məhz bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyır. Bu gün Azərbaycanda istehsal olunan bir çox hərbi məhsullar ordumuzun potensialının gücləndirilməsində əsas amillərdən biridir. Ölkənin yeni hərbi qüdrəti və üstünlüyü 2016-cı ilin aprel döyüşlərində nümayiş etdirilib. Bu hərbi əməliyyatlar ən müasir hərbi texnika ilə təchiz edilmiş Azərbaycan Silahlı Qüvvələrinin döyüş əməliyyatlarında real üstünlüyə malik olduğunu nümayiş etdirdi. Azərbaycan Ordusunun Lələtəpədə, Naxçıvanın Günnüt, Qızılqaya yüksəkliklərinə sancdığı Azərbaycan bayrağının tezliklə Qarabağ torpağında azad olunacaq ərazilərdə sancılacağı gün qarşıda idi.Həmin zaman yetişdi. 27 sentyabr 2020-ci il tarixi.





44 günlük Vətən müharibəsində Azərbaycan tarixi günlərini yaşadı. Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində işğalda olan şəhər, qəsəbə və kəndlərimiz azad edildi. Tarixin yaşanılacaq zamanlarında Zəfər tariximiz şərəf tarixi olaraq vərəqlənəcəkdir. Müharibənin qızğın getdiyi günlərdə demək olar ki, hər gün kənd, qəsəbə və şəhərlərin işğaldan azad olunması xəbərini eşidirdik.

## "İQTİSADİYYATI GÜCLÜ OLAN DÖVLƏT HƏR ŞEYƏ QADİRDİR"

44 gün milyonlarla insanın səbirsizliklə gözlədiyi CƏBHƏ XƏBƏRLƏRİ. Hər gün eşitdiyimiz xəbərlər bizi qələbəyə daha da yaxınlaşdırırdı. Otuz ilə yaxın bir zamanda insanların əzəli torpaqlarımıza dönəcəyi arzularının reallaşması hər ötən gün yaxınlaşırdıq. Azərbaycan Ordusu respublikamızın ərazi bütövlüyünü təmin etmək uğrunda Ermənistanın hərbi təxribatına qarşı mübarizə aparırdı. İşğal altındakı torpaqlarımızın bir hissəsi, bir neçə strateji əhəmiyyətli yüksəklik qısa bir vaxtda azad olundu və düşmənin xeyli canlı qüvvəsi və döyüş texnikası məhv edildi, mühəndis-istehkamları dağıdıldı. Təbii ki, əldə olunan qələbəmizin əsasında hər şeydən əvvəl Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən ölkəmizdə güclü iqtisadiyyatın yaradılması istiqamətində apardığı uğurlu və məqsədyönlü siyasət dayanırdı. Ulu Öndər Heydər Əliyevin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" fikri bir daha Vətən müharibəsində öz təsdiqini tapdı.

Vətən müharibəsində xalqımızın düşmənə qarşı apardığı mübarizə ədalətli və özünün işğal olunmuş torpaqlarının azad olunması məqsədini daşıyırdı. Prezident İlham Əliyevin iradəsi və qətiyyəti, xalqla hakimiyyətin həmrəyliyi, ölkəmizdə yaranan siyasi birlik, xalqımızın ruh yüksəkliyi və qələbəyə möhkəm inamı sayəsində mənfur düşmənin torpaqlarımızdan qovulacağına qəti əminlik yaratmışdır.

## "ƏGƏR ONLAR İŞĞALÇINI DAYANDIRA BİLMİRLƏRSƏ, AZƏRBAYCAN ƏSGƏRİ ONLARI DAYANDIRACAQDIR"

Düşmən təxribatlarına son qoymağa və torpaqlarımızdan bir dəfəlik getmələri tələb olunarkən, "Qarabağ Azərbaycandır", "Qarabağa Azadlıq" şüarları səsləndirildi. Azərbaycan gəncləri mübarizəni sosial şəbəkələr vasitəsi ilə də apararaq, müasir dövrün tələblərinə uyğun olaraq informasiya müharibəsində fəallıq göstərdilər. "Sentyabrın 27-də erməni silahlı birləşmələri bizə qarşı növbəti hərbi təxribat törədib. Mən onları xəbərdar etmişdim. Onlara BMT kürsüsündən sözlərimi demişdim", - deyən Azərbaycan Prezidenti bildirib ki, bütün beynəlxalq ictimaiyyətə sözlərimi demişdim ki, Ermənistan yeni müharibəyə hazırlaşır, Ermənistan dayandırılmalıdır: "Əfsuslar olsun ki, beynəlxalq ictimaiyyət və bu məsələ ilə məşğul olan tərəflər erməni hökumətinə lazımi səviyyədə təsir edə bilməmişlər. Əgər onlar işğalçını dayandıra bilmirlərsə, Azərbaycan əsgəri onları dayandıracaqdır. Azərbaycan əsgəri onları öz torpaqlarından çıxaracaq və haqq-ədaləti bərpa edəcək. Mən demişdim ki, əgər iyul və avqust aylarında bizə qarşı törədilmiş hərbi təxribatlar təkrarlanarsa, Ermənistan peşman olacaq və sözümün üstündə dururam. Bu gün döyüş meydanında əldə olunmuş üstünlük, azad edilmiş yaşayış məntəqələrimiz, strateji yüksəkliklər bir daha onu göstərir ki, Azərbaycan əsgəri, Azərbaycan zabiti öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirir".

## ZƏFƏR GÜNÜ QARŞIDA İDİ

Heç kəsdə şübhə doğurmurdu ki, güclü orduya, iqtisadi gücə, milli birliyə malik olan Azərbaycan işğal altında olan torpaqlarımızı qarış-qarış azad edirdi. Ordumuzun yüksək döyüş hazırlıq qabiliyyəti, ən son növ döyüş texnikası və hərbi avadanlıqlar ilə təmin olunması eləcə də gənclərimizin ölkə rəhbərliyinə və ordumuza verdiyi dəstək bunu deməyə əsas verdi. Prezident Cənab İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin ərazi bütövlüyünün bərpası, torpaqlarımızın yağı düşməndən azad edilməsi istiqamətində yürütdüyü siyasət xalqımıza Zəfər sevincini yaşatdı. Cənab İlham Əliyevin vurğuladığı kimi, "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Dövlət başçısına ünvanlanan məktublarda da qələbə əzmi, dövlət başçısına minnətdarlıq özünü açıq-aydın göstərirdi. Erməni vandalları tarixən xalqımıza qənim kəsilmiş və həmişə Azərbaycan torpaqlarına göz dikmişlər. Cənab Prezident rəhbərliyi ilə Azərbaycan Ordusu tariximizdə yeni zəfər səhifəsi açaraq ərazi bütövlüyünün təmin olunması və Qarabağın işğaldan azad edilməsi tarixini yazırdı. Məktublardan birində belə yazılırdı: "Başladığınız haqq davası ilə dünyaya bir daha sübut etdiniz ki, Azərbaycan xalqı sülhsevər olduğuna görə ərazi bütövlüyünü sülh yolu ilə təmin etmək üçün uzun illərdir hərbi yola əl atmamış, səbir etmişdir. Ermənistan hakimiyyətinin və şovinist ermənilərin pis xislətləri bu savaşda da özünü göstərir. Belə ki, bizim ordumuz öz torpaqlarımızda erməni hərbçiləri ilə döyüş apardıqları halda, onlar yaşayış məntəqələrinə atəş açaraq günahsız və dinc əhaliyə, yaşlı və körpə insanlara qarşı müharibə cinayəti törədirlər. Onların bu əməlləri sübut edir ki, müzəffər Ordumuzun qarşısında tab gətirə bilmədiklərinə görə dinc əhalidən qisas alırlar. Müzəffər Ali Baş Komandan, məlumdur ki, ölkəmizin hərtərəfli inkişafı üçün əlinizdən gələni əsirgəmirsiniz. Buna görə də şanlı Ordumuz bu gün ön cəbhədə mühüm uğurlar qazanır. Xalqımız inanır ki, Sizin siyasətiniz və yenilməz Ordumuzun qəhrəmanlığı sayəsində Azərbaycanın ərazisi bütövləşəcək, işğal olunmuş ərazilər azad ediləcək və ölkəmizin rifahı yüksələcəkdir. Bu yolda biz də Sizin yanınızdayıq. Azərbaycanın ərazi bütövlüyünün, təhlükəsizliyinin təmin olunmasını və davamlı inkişafını Sizinlə birlikdə olmaqda görürük. Həyatınızı dövlətimizə və xalqımıza həsr etdiyinizə görə Sizə minnətdarıq. Qarabağ Azərbaycandır!".

Döyüş meydanında məğlubiyyətini dərk edən Ermənistan Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etdi və kapitulyasiya şərtlərinə razılığını verdi. Bəyanatda göstərilirdi ki, Ermənistan öz üzərinə öhdəlik götürür ki, qarşıdan gələn 20 gün ərzində Azərbaycanın işğal altında olan Ağdam, Kəlbəcər və Laçın rayonlarından qoşunlarını çıxaracaq: Bəyanatdan da göründüyü kimi, işğalçı qüvvələr Kəlbəcər rayonunu noyabrın 15-dək təhvil verməli idi. Amma Ermənistan tərəfi ordunun və qanunsuz olaraq yerləşdirilmiş insanların rayondan çıxarılması üçün əlavə 10 gün vaxt istədi. Azərbaycan dövləti, Prezident İlham Əliyev həmişə olduğu kimi humanizm prinsiplərinə böyük üstünlük vermiş oldu.

Azərbaycanın qazandığı Zəfərdə dövlət-xalq birliyi, Müzəffər Ali Baş Komandana və Azərbaycan Ordusuna olan inam, son 30 ildə ölkəmizin keçdiyi inkişaf yolu əsas rol oynadı. Əlbəttə ki, müharibənin gedişi deməyə əsas verirdi ki, düşmən döyüş meydanında çox böyük itkilər verərək uduzmuş dövlətə çevrilirdi. Vətən müharibəsi Azərbaycanın böyük Zəfəri ilə bitdi. Azərbaycan son 2 əsrlik tarixində ilk dəfə idi ki, müharibədən ərazi itkisi ilə yox, ərazi bütövlüyünü bərpa edərək çıxdı. Uzun illərdən bəri düşmən tapdağı altında qalmış torpaqlarımızın işğaldan azad edilməsi ilk növbədə Azərbaycan xalqının özünə inamını qaytardı, xalqın öz liderinə, onun gücünə etibarını daha da möhkəmləndirdi. 44 günlük müharibə Azərbaycan xalqının, onun Liderinin, şanlı ordumuzun gücünü bütün dünyaya nümayiş etdirdi. 44 gün ərzində, sadəcə, müharibə meydanında deyil, həmçinin diplomatik cəbhədə də mübarizə aparan Azərbaycan hər iki döyüşdən qalib çıxdı. Beləliklə, 30 ilə yaxın davam edən münaqişə başa çatmaqla yanaşı, tarixi ədalət bərpa olundu, bölgədə yeni reallıqlar yarandı.



***Nəzakət ƏLƏDDİNQIZI***

# Ailə planlaması: aborta “yox” deyək!

***Azərbaycanın abort statistikasına görə dünyada liderlik etməsi ciddi demoqrafik təhlükə yaradan problemdir. Hər ölkə abortlarla fərqli mübarizə yolları seçir, bir çox halda insanlar nə qadağalar, nə maarifləndirmə ilə məlumatlanmaq istəmirlər. Əksər hallarda doğum evlərində, qadın məsləhətxanalarında mütəxəssislər qadınlara ailə planlamasının abortdan qorunmaq üçün əhəmiyyətli olduğunu başa salırlar.***

Ailələrin istənilən sayda uşaq sahibi ola bilmələri üçün tətbiq olunan üsullara ”ailə planlaması” deyilir. Ailə planlaşdırılması doğumun qarşısını almaq, sonsuzluq yaratmaq demək deyil. Ailə planlaması bir növ nəzarət altında olan doğum deməkdir və ananın və doğulacaq körpənin sağlamlığı maksimum düşünülür. Bu, bir növ nə zaman uşaq sahibi olmaq istəyəndə, o vaxt gerçəkləşən arzudur. Ailə planlaması, insanları övlad sağlamlığı mövzusunda məlumatlandırmaq, ana ölümlərinin qarşısını almaq və sağlamlığını qorumaq, körpələrin sağlam doğulmalarını və yaşamalarını təmin etmək, yüksək riskli hamiləliklərin qarşısını almaq, arzu olunmayan hamiləliklərin qarşısını almaq, uşaq sahibi olmaq istəyənləri tibbi köməklə təmin etmək, valideynləri ailə planlamasının vasitələri ilə tanış etmək, daha gənc və ya ahıl yaşda istənməyən hamiləliyin qarşısını almaq kimi məsələləri ehtiva edir.











İndi bir çox ölkədə ailə planlaşdırılması ilə bağlı ödənişsiz seminar və treyninqlər keçirilir. Subay və ya yeni ailə quran gənclər, artıq övladı olan ailələr belə bu treyninqlərdə iştirak edirlər. Bu təlimlər zamanı qadınlara başa salınır ki, doğuşlar arasında minimum 2 il müddət olmalıdır. Əgər birinci hamiləliklə ikinci hamiləliyin arasındakı məsafə az olarsa, bu, uşağın və ananın həyatına təhlükə yarana bilər. Bu cür hamiləlikdən doğulan uşaqların azçəkili, fiziki qüsurlu olmaları ehtimalı böyükdür, bəzi hallarda ölüm səbəbləri də məhz bu olur. Bu məsafəni təmin etmək üçün isə müxtəlif vasitələr var.

Ailə planlaması üsulları həm qədim dövrün sınanmış üsulları, həm də müasir vasitələr ola bilər. Hormonal hesab edilən vasitələr doğuşa nəzarət həbləri, aylıq və 3 aylıq iynələr, implantlardır. Uşaqlıqdaxili spirallar da özlüyündə hormonal və normal olaraq iki cür çeşidlənir. Maneə üsulu adlandırılan prezervativlər də hamiləlikdən qorunma vasitəsidir. Prezervativ kişi toxum hüceyrələrinin (spermlərinin) qadının vaginal zonasına tökülməsinin qarşısını almaq üçün istifadə edilən vasitədir. Başqa sözlə, bu vasitə, sperm və yumurtanın qovuşmasına maneə törədərək hamiləliyi önləyən üsuldur. Bir başqa xüsusiyyəti də cinsi yolla yoluxan xəstəliklərin qarşısını almasıdır. Əgər doğru şəkildə istifadə edilərsə hamiləlikdən qorunmaq üçün 95-98% güvənli bir üsuldur.

Hormonal iynələr adətən həb içməyi unudan insanlara məsləhət görülən üsuldur. Asan tətbiqi və uzun müddətli qorunma səbəbiylə üstünlük verilə bilər. Tərkibindəki estrogen və progesteron hormonları sayəsində yumurtlamağa maneə törədir, uşaqlıq boynundakı mayeni qatılaşdıraraq sperma keçidinin qarşısını alır. Hamiləlikdən qorunma iynələrinin etibarlılığı 99,2% olaraq dəyərləndirilir. Doğuşa nəzarət iynələri aylıq və ya 3 aylıq olaraq tətbiq edilir. Aylıq inyeksiyalarda progesteron və estrogen, 3 aylıq iynələrdə isə yalnız progesteron hormonu var. Bu inyeksiyalar menstruasiyanın ilk 5 günü ərzində həkimin nəzarəti altında əzələdaxili olaraq tətbiq edilir. Başqa bir üsul qadının vaginal zonasına çəkilən xüsusi gel-kremlərdir, bu vasitələr spermöldürücü qüvvəyə malikdirlər. Krem-gellər 5-6 saat ərzində qoruma gücünə malikdir.

Uşaqlıqdaxili spiralların tətbiqi zamanı isə uşaqlığın ağzı el dili ilə desək, torba şəklində büzülür və həmin spiral ora yerləşdirilir. Beləcə, yumurtalarla spermaların birləşməsinin qarşısı 99 faiz alınır. Bundan başqa, qadınlarda yumurtlama dövrünün hesablanması ilə həyata keçirilən təbii qoruma üsulu da var ki, bu üsulla müntəzəm menstrual dövrü olan qadınlarda yaxınlaşan yumurtlama vaxtı ilə cinsi əlaqə tarixi proqnozlaşdırıla bilər. Həkimlər bu üsulun effektivliyini 75% ətrafında dəyərləndirirlər.

Son illər tibb elmi hamiləlikdən 99.3 faiz qoruyan başqa bir üsulu da tətbiq edir. Bu, dərialtı implantlardır. Qoruyuculuğu yüksək olan metodlardan biridir və hormon tərkiblidir. Yerli keyitmə ilə çox qısa bir müddətdə qolun iç səthinə taxılır. Taxılma və çıxarma proseduru ağrısızdır, qadını hamiləlikdən 3 il qoruyur. Amma bu üsul ilk 6 ayda aybaşı pozulmalarına səbəb ola bilər. Bu üsulla hamiləlikdən qorunma adətən endometrial qalınlaşması olan, şiddətli aybaşı qanaxmaları olan pasiyentlərə, ya da ciddi aybaşı ağrıları olan pasiyentlərə tətbiq edilir. Çünki implant həm aybaşı ağrılarının yüngülləşməsi, həm də qanaxmaların azalması üçün müalicəedicidir.

Hamiləliyin qarşısının birdəfəlik alma üsulu qadına və kişiyə tətbiq edilən cərrahi üsuldur. Qadında uşaqlıq borularının cərrahi müdaxilə ilə bağlanması üsulu bərpa edilən üsul deyil və borusu bağlanan qadınlar, artıq təbii yolla hamilə qala bilmirlər. Uşaqlıq borusunun bağlanması, yumurtalıqdan atılan yumurta hüceyrəsinin uşaqlıq borusundan keçməsini və uşaqlığa çatmasına mane olaraq hamiləlikdən qoruyur. ”Vazektomiya” üsulu isə kişilərdə sperm kanallarının bağlanmasıdır. Gələcəkdə uşaq istəyi ehtimalı varsa bu çox zaman mümkün olmur. Cərrahi yolla boruların və kanalların bağlatmış insanlar yalnız tibbi müdaxilə - süni mayalanma üsulu ilə övlad sahibi ola bilir.

Təəssüflə etiraf etmək lazımdır ki, ölkəmizdə qadınların çox az hissəsi hamiləlikdən qorunma üsullarından istifadə edir, ailə planlaması barədə olduqca az məlumata malikdirlər. Statistik göstəricilərə görə, Azərbaycanda hər il 20 min uşaq abort edilir. Qeyri-rəsmi statistika isə bu rəqəmi 25-27 min arasında dəyişir. Abortun statistikası göstərir ki, qadınlar ailə planlaması vasitələrindən istifadə etmir, bəzən də selektiv aborta məcbur edilir.

Əvvəllər, tibbin bu qədər inkişaf etmədiyi dövrlərdə bəzi bitki çaylarının vasitəsi ilə qadınların hamiləlikdən qorunmaq imkanı vardı. Bu çaylar uşaqlığın daralmasına və qanaxmaya səbəb olduğu üçün hamiləlik baş tutmurdu və bitkilərin bu xüsusiyyətlərindən istifadə edərək, doğuşa nəzarətdə istifadə olunurdu. Bu üsullardan bəziləri bu gün də istifadə edilir. Cinsi əlaqədən sonra əməkömәcikimilər fəsiləsinə aid bitki olan hibiskus çayı içmək hamiləlik riskini azaldır. Eləcə də mürəkkəbçiçəklilər fəsiləsindən olan adaçayı, o cümlədən biyan və yovşan da uşaqlıq yolunda daralma yaradaraq qanaxmaya səbəb ola, dolayısı ilə hamiləliyin baş tutmamasını təmin edə bilər. Cəfərinin çox miqdarda istehlakı da uşaqlıqda daralmalara səbəb ola bilər.

Qədim Misirdə spermanı öldürmək və ya onun vajinadan uşaqlığa keçməsinin qarşısını almaq üçün uşaqlıq boynuna bir növ qoruyucu aparat yerləşdirirdilər. Bu dövrümüzdə tətbiq edilən uşaqlıqdaxili spiralı xatırladan bir üsul olub. Qədim yunanlar doğuşa nəzarət üçün yarpız, sədəf çiçəyi, yabanı yerkökü və cəfəri toxumu kimi bitkilərdən istifadə edirdilər. Qədim Çində qadınlar hamiləlikdən qorunmaq üçün uşaqlığın ağzına maneə üsulu kimi yağlı bambuk kağız disklər yerləşdirirdilər. İntibah dövründə doğuşa nəzarət üsulları ilə bağlı inqilab ilk prezervativin kəşf edilməsi ilə oldu. 1500-cü illərdə Orta əsr Avropasında infeksiya riskini düşünən zadəganlar keyfiyyətli kətandan hazırlanmış dekorativ naxışlı prezervativlərdən istifadə edirdilər.

Sonda məlumat üçün qeyd edək ki, Beynəlxalq Ailə Planlaması Federasiyanının 1995-ci ildə qəbul etdiyi ”Nəsil artırma və cinsi haqlar” haqqında bildirişə görə bütün qadınların nəsil artırma zamanı sağlamlığının qorunması üçün bütün gərəkli vasitələrdən istifadə etmə hüququ var. Eləcə də bildirişə görə qadınların ailə planlaması haqqında məlumatlandırılması da zəruridir.

***Lalə Mehralı***

# Sallama çayların tərkibi NƏDİR?

***Türk mədəniyyətində çayın çox mühüm yeri var. Qara çayla yanaşı, xüsusilə son zamanlar tez-tez istehlak edilən bitki çayları ilə birlikdə paket çaylar da həyatımızda əhəmiyyətli yer qazanmışdır.***

Bəs, paket çayların tərkibi nədir? SİA mövzu ilə bağlı araşdırma aparıb. Kanadada aparılan bir araşdırma, çay paketlərinin əksəriyyətində təxminən 25 faiz plastik olduğunu ortaya qoydu. Kanadanın McGill Universitetinin tədqiqatçıları çay paketləri ilə bağlı mühüm nəticəyə gəliblər. 2019-cu ildə aparılan araşdırma, bir çay paketinin milyardlarla mikroplastik hissəcikdən ibarət olduğunu ortaya qoyub. Araşdırmanın nəticələri isə çay həvəskarlarını qorxudub.

Tədqiqatçılar qaynar suda beş dəqiqə dəmlənmiş dörd müxtəlif növ çay paketini sınaqdan keçiriblər. Çay yarpaqları plastik görünmədiyi üçün paketlərdən çıxarılıb. Çay paketlərini bir müddət qaynar suda "dəmlədikdən" sonra elektron mikroskopla analiz edən tədqiqatçılar gördükləri mənzərə qarşısında heyrətə gəliblər. Məlum olub ki, bir paket çay bir stəkan isti suya atılanda təxminən 11,6 milyard mikroplastik və 3,1 milyard kiçik nanoplastik hissəciklər buraxır. Bu miqdar bir insanın bir il ərzində istehlak etdiyi mikroplastik hissəciklərin təxmin edilən miqdarından xeyli yüksəkdir. Orta hesabla bir insan ildə ən azı 50 min mikroplastik hissəcik udur.

Tədqiqata rəhbərlik edən PhD tələbəsi Laura M. Hernandez Healthline-a dedi: "Biz bir neçə plastik hissəcik tapacağımızı gözləyirdik. Ancaq milyardlarla hissəcik tapmaq bizi çox təəccübləndirdi".

Mikroplastiklərə dünyanın hər yerində, havada, torpaqda, çaylarda, ən dərin okeanlarda, şüşə suda və dəniz məhsullarında rast gəlinir. Çay paketlərinin əksəriyyəti təbii liflərdən hazırlanır. Bununla belə, bir çox marka hələ də plastikdən istifadə edir. Xüsusilə piramida şəkilli çay paketlərinin daha çox plastik olduğunu ifadə edən Hernandez, "Bütün şirkətlər çay paketlərinin plastik və ya kağız olduğunu siyahıya salmır. Əgər paketin içərisində çayı görürsünüzsə, o, çox güman ki, plastikdir. Tərkibində plastik olan çay paketləri yerinə, tamamilə bioloji parçalana bilən, plastiksiz, üzvi və ya bitki mənşəli materiallardan hazırlanmış çay paketlərini seçə bilərsiniz.









Mikroplastiklərin çaydan qaynaqlandığı düşünülsə də, əsl qaynağın silkələmə ipi və paketin özü olduğunu ifadə edən mütəxəssislər, "Bu gün demək olar ki, heç bir çay paketi markası silkələmək üçün istifadə edilən sapın materialına və istifadə edilən dəm torbasının materialından aydın və başa düşülən şəkildə yazmır. Ona görə də bütün çay markaları üçün mikroplastik risk var" deyir.

Kanadada aparılan araşdırma göstərir ki, hətta yüksək keyfiyyətli markaların çantaları da plastikdən hazırlanır və xeyli miqdarda mikroplastik buraxır. Bu səbəbdən ənənəvi çay dəmləmə üsulunu istər dad, istərsə də tullantı istehsalı baxımından hər mənada təbiət və sağlamlığa uyğun adlandıra bilərik.

## Mədə, bağırsaq və ağciyərlərdə zərərli təsirlər görünür

İnsanların ümumiyyətlə mikroplastiklərə dəri, udma və tənəffüs yolu ilə məruz qaldığını ifadə edən Dr. Bozkuş, "Mikroplastiklərin potensial zərərli təsirləri daha çox mədə, bağırsaq sistemi və ağciyərlərdə olur. Mikroplastik hissəciklərin yaratdığı havanın çirklənməsinin tənəffüs və ürək xəstəlikləri ilə sıx əlaqəli olduğunu göstərən bir çox araşdırma var. Məlumdur ki, o, insanlar tərəfindən davamlı olaraq nəfəs aldıqda və ya udulduqda immunitet sistemini zəiflədir" deyə bildirib.

Çay paketlərinin mikroplastik baxımından ən təhlükəli qida maddəsi olduğunu ifadə edən Dos. Dr. Gündoğdu, "Sallama çay paketlərinin torba materialında da ciddi kimyəvi risk var. Məlumdur ki, bu kimyəvi maddələr xüsusilə hormonları pozan və kanserogendir. Əslində bu kimyəvi maddələr arasında ən çox yayılmış olan PFAS kimi tanınan kimyəvi maddənin istiliyə davamlılıq üçün belə qablaşdırma tətbiqlərində istifadə edildiyi məlumdur".

Gündoğdu, "Bu kimyəvi maddə sonsuza qədər təbiətdə qalma qabiliyyəti ilə tanınır və ciddi kanserogendir. Axı bu kimyəvi maddələrin olduğu qablaşdırmanın bir parçasını belə istehlak etmək sağlamlıq üçün çox risklidir" deyə üzləşdiyimiz təhlükəni vurğulayıb.

## Xərçəngə səbəb olur

Mikroplastiklərin quruluşunda istifadə edilən bir çox kimyəvi maddənin olduğunu deyən Bozkuş, plastik istehsalında tez-tez istifadə edilən bəzi maddələrin insan sağlamlığına təsirlərini sadaladı: Polietilen-tereftalat (PET): Geyim üçün liflərdə, maye və qidalar üçün qablarda və örtük sənayesində istifadə olunur. Bu maddə insanlar üçün kanserogen hesab olunur.

Bisfenol A (BPA): Su butulkalarının, idman avadanlıqlarının, su borularının, qida və içki qablarının səthində və bir çox sahədə tez-tez istifadə olunur. Bu maddə endokrin sistemini pozan təsirləri ilə sonsuzluğa səbəb olsa da, müxtəlif davranış sağlamlıq problemlərinə də səbəb olur.

Ftalat: Plastik materialların elastikliyini və davamlılığını artırmaq üçün istifadə olunur. Hormon pozucu təsiri ilə reproduktiv sağlamlığı təhdid etsə də, cinsi orqanlarda müxtəlif inkişaf pozğunluqlarına səbəb ola bilər.

## Tək risk bədənimiz deyil

Tərkibində plastik olan çay paketləri bədənimizlə yanaşı təbiət üçün də təhlükə yaradır. Tərkibindəki plastik tərkibinə görə çay paketləri tam parçalana bilmir .

Xüsusilə ofislərdə çayı silkələmək vərdişinə rast gəlindiyi üçün plastik zibil miqdarında ciddi artım olduğunu ifadə edən Dos. Dr. Gündoğdu, "Bura birdəfəlik kağız kimi görünən plastik fincanların istehlakını əlavə etmək faydalı olardı. "Çünki insanlar xüsusilə pandemiya dövründə karton görünüşlü plastik fincanlarda çay içməyə başladılar" dedi. Gündoğdu xəbərdarlıq edir: "Çay dəmləmək həm təbiəti, həm də özünüzü qoruyur".

***Ayşən Vəli***

# "Mənəvi və fiziki sağlamlıq gələcəyimizin qarantıdır"

***Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, "Azərbaycan Televiziyası və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi qrupunun 2024-cü il üçün birgə Tədbirlər Planına uyğun olaraq, oktyabrın 17-də Bərdə şəhərində "Mənəvi və fiziki sağlamlıq gələcəyimizin qarantıdır" mövzusunda tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə Bərdə şəhərində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.***





Bərdə Rayon Mədəniyyət Mərkəzində keçirilən tədbirdə əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib. Ümummilli Lider Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.

Tədbirdə çıxış edən YAP Bərdə rayon təşkilatının sədri Faqət Şadlinskaya, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi qrupunun Milli İnformasiya sektorunun müdiri Raqif Allahverdiyev, Səhiyyə Nazirliyi Sumqayıt şəhər Narkoloji Dispanserinin şöbə müdiri, həkim-narkoloq Vüsal Cabbarov, Bərdə Rayon İcra Hakimiyyətinin (RİH) Hüquq şöbəsinin məsləhətçisi, RİH yanında Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyanın katibi Natiq Səfərov narkomaniyaya qarşı mübarizədə maarifləndirici tədbirlərin keçirilməsinin vacibliyini vurğulayıblar.

Çıxışlarda maarifləndirmə işlərinin effektiv vasitə olduğu bildirilib, bu sahədə həyata keçirilən tədbirlərlə bağlı statistik məlumatlar təqdim edilib. Eyni zamanda, Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nda



məhz maarifləndirmə məsələlərinə xüsusi yer ayrıldığı diqqətə çatdırılıb.

İnteraktiv formada davam etdirilən tədbirdə gənclərin sualları cavablandırılıb.

Tədbir iştirakçılarına narkomaniya ilə mübarizənin təşviqi məqsədilə Dövlət Komissiyasının İşçi qrupu tərəfindən hazırlanmış əyani vəsaitlər paylanıb. Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.



## Ombudsmanın "Uşaq Hüquqları Aylığı"nın elan olunması ilə bağlı

# MÜRACİƏTİ

***Uşaqlar gələcəyimizi təcəssüm etdirən ən dəyərlisərvətimizdir. Uşaq hüquqlarının müdafiəsi və təbliği uşaqların inkişafı, rifahı, onların müxtəlif zərərlərdən qorunması baxımından mühüm əhəmiyyətə malikdir. SİA xəbər verir ki, bu sözlər Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) "Uşaq Hüquqları Aylığı"nın elan olunması ilə bağlı Müraciətində qeyd olunub.***




Müraciətdə bildirilib ki, 1989-cu ilin 20 noyabr tarixində Birləşmiş Millətlər Təşkilatı (BMT) tərəfindən qəbul edilmiş "Uşaq hüquqları haqqında" Konvensiya hər bir uşağın sahib olduğuhüquqları və iştirakçı dövlətlərin öhdəliklərini təsbit edən, uşaqların xüsusi müdafiəyə ehtiyacı olduğunu vurğulayan beynəlxalq sənəddir. Dünya dövlətləri tərəfindən insan hüquqları sahəsində ən çox ratifikasiya olunmuş bu beynəlxalq müqavilə ayrı-seçkiliyin yolverilməzliyi, uşaqların mənafelərinin üstünlüyü, yaşamaq və inkişafetmək hüququnun təmini, uşaqların fikirlərinə hörmətlə yanaşılması kimi mühüm prinsipləri özündə ehtiva edir.

"Uşaq hüquqları haqqında" Konvensiyanı ratifikasiya edən dövlətlərdən biri kimi Azərbaycanda ötən dövr ərzində uşaq hüquqlarının müdafiəsi sahəsində həyata keçirilmiş genişmiqyaslı islahatlar nəticəsində milli qanunvericilik müasir dövrün tələblərinə uyğun təkmilləşdirilmiş, dövlət proqramları, strategiyalar və digərəhəmiyyətli sənədlər qəbul edilmiş, institusional mexanizmlər yaradılmış, bir sıra mühüm nailiyyətlər əldə edilmişdir. Uşaq hüquqlarının müdafiəsi və təbliği Ombudsmanın fəaliyyətində mühüm yer tutur və bu istiqamətdə davamlıolaraq tədbirlər həyata keçirilir.

Uşaq hüquqları sahəsində əsas beynəlxalq sənədolan "Uşaq hüquqları haqqında" Konvensiyanın qəbul edilməsinin 35-ci ildönümü ilə əlaqədar Ombudsman tərəfindən hər il olduğu kimi bu il də 20 oktyabr - 20 noyabr tarixləri ölkədə "Uşaq Hüquqları Aylığı" elan edilir.

Artıq ənənə halını almış "Uşaq Hüquqları Aylığı" uşaq hüquqlarının müdafiəsi və təbliği sahəsində fəaliyyətin gücləndirilməsi, uşaqlara diqqət və qayğının təşviqi, bu sahədə məlumatlılığın artırılması məqsədlərinə xidmət edir. Ötən illərin təcrübəsi göstərir ki, aylıq aidiyyəti dövlətvə yerli özünüidarəetmə qurumları, vətəndaş cəmiyyəti institutları arasında geniş maraq doğurur və bu istiqamətdə görülən tədbirlərin miqyası getdikcəartmaqdadır.

2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsini və noyabr ayında ölkəmizin mötəbər tədbirə - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi edəcəyini nəzərə alaraq, iqlim dəyişmələri və onun fəsadlarından təsirlənən əhali qrupu kimi uşaqların hüquqlarının müdafiəsi, onların bu istiqamətdə məlumatlandırılması, müzakirələrdə iştirakı xüsusi əhəmiyyət daşıyır.

Təəssüf hissi ilə bildirmək istərdim ki, Ermənistanın uzun müddət işğal altında saxladığı ərazilərimizdə törətdiyiekoloji cinayətlər, eləcə də basdırdığı minalar uşaqlar da daxil olmaqla mülki əhalinin həyat və sağlamlığına, onların təhlükəsiz geri qayıdışına ciddi əngəl törətməkdədir. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün başladığı dövrdən indiyədək 3400-dən çox vətəndaşımız minalardan zərər çəkmişdir ki, onlardan 358-ni uşaqlar təşkil etmişdir. Hesab edirəm ki, insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlar tərəfindən bu istiqamətdə qətiyyətli addımlar atılmalı və Ermənistanın mina terroruna son qoyulmalıdır.

Cəmiyyətin həssas təbəqəsi kimi uşaqların ehtiyaclarının hərtərəfli təmini, onların daim diqqət mərkəzində saxlanılması, ahəngdar inkişafı, layiqli şəxsiyyət kimi yetişməsi hər bir dövlət, eləcə də mütərəqqi cəmiyyətlər üçün olduqca vacib amillərdəndir.

Qeyd edilənləri nəzərə alaraq, dövlət və yerli özünüidarə orqanlarını, vətəndaş cəmiyyəti institutlarını və uşaq hüquqları sahəsində fəaliyyət göstərən digər aidiyyəti qurumları "Uşaq Hüquqları Aylığı"na fəal şəkildə qoşulmağa dəvət edir, uşaq hüquqlarının müdafiəsi və təbliği istiqamətində müvafiq tədbirlər həyata keçirməklə təşəbbüsümüzə dəstək verməyə çağırıram. Ümidvarıq ki, aylıq çərçivəsində uşaqları da fəal şəkildə cəlb etməklə keçiriləcək tədbirlər uşaqhüquqlarının müdafiəsinə diqqəti daha da artıracaq, hüquq və azadlıqların daha səmərəli müdafiəsini təmin edəcəkdir.

# Günümüzün aktual problemi - Bullinq

***Məktəblilər arasında zorakılığa, aqressiyaya məruzqalma halları hələ də günümüzün aktual problemlərindədir. Bullinq adlandırılan bu hal məktəblilərin bir-birinə mənəvi və fiziki üsulla təzyiq göstərməsi ilə müşahidə olunur. Uşaqların həmyaşıdlarına qarşı düşmənçilik münasibəti, onların üzərində güc tətbiq etmələri bullinq qurbanında özlərini müdafiə etməkdə çətinliyə, özgüvən əskikliyinə, təkliyə meyilli olmağa, yad insanlar tərəfindən asanlıqla aldadılmağa səbəb olur.***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Bəs bullinqin qaynağı nədir? Bullinqlə mübarizə istiqamətində hansı addımlar atılır? Tədqiqatlar göstərir ki, bullinqi tətbiq edən, bullinq göstərən şəxslər fiziki cəhətdən üstünlüyə, güclü bədən formasına sahib olanlardır. Bullinqin qurbanları isə daha çox zəif, emosional, daim depressiv olanlar, ünsiyyətdə zəif olan uşaqlardır. Onlar qurban rolunda olurlar. Bullinq törədənlər adətən özlərinə diqqət çəkməyi sevən, dominantlığa meyilli insanlar olur. Ona görə də özlərinə zəif bənd seçirlər. Onun üçün də sinif daxilində hansı uşağa bullinq tətbiq etməklə bağlı əvvəlcədən müşahidə aparırlar.





Çox zaman uşaqlar arasında baş verən konfliktlər böyüklər tərəfindən biganəliklə qarşılanır. Məktəb rəhbərliyi və ya valideynlər bu kimi konfliktlərin ciddi olmadığını, uşaqların bunları yaşayaraq böyüdüklərini və problemlərini özləri həll edə bilməyi beləcə öyrəndiklərini düşünərək müdaxilə etməyin mənasız olduğunu hesab edirlər. Bəs əslində nələr baş verir, bu kimi hallar necə xarakterizə olunmalıdır? Bullinq üzündən qapalı həyat tərzi keçirən, heç kimə qaynayıb-qarışmayan, dərslərində geriləyən və intihar edən uşaqların hekayələri məsələnin əslində nə qədər ciddi olduğunu göstərmirmi?

Azərbaycanda bullinq haqqında ilk dəfə sosial mediada aktiv müzakirələrin başlanmasına 13 yaşlı Elina Hacıyevanın məktəbdə üzləşdiyi bullinq nəticəsində aprelin 4-ü 2019-cu ildə oxuduğu 162 nömrəli məktəbdə sarsıdıcı intiharı səbəb oldu. Buna qədər Elina üzləşdiyi bullinq halları ilə bağlı müəllim və valideynlərini məlumatlandırmasına baxmayaraq bu halın müsbətə doğru dəyişməsi üçün məktəb rəhbərliyinin heç bir addım atmadığı məlum oldu. Hətta məktəb rəhbərliyi yaralanmış şagird üçün vaxtında tibbi yardım çağırılmasını məqsədli şəkildə yubatmış və şagirdin ölümündən sonra valideynlərini onu yaxşı tərbiyə etməməkdə günahlandırmışdı. Hadisənin təfərrüatları üzə çıxarkən Elinanın məktəbdə bullinqin mənəvi, fiziki, homofob növlərinə məruz qaldığı məlum oldu.

Müzakirələr zamanı o da məlum oldu ki, hər hansı bir şagirdə məktəbdə Elinaya edildiyi kimi psixoloji və fiziki qısnamaların bullinq davranışı olduğundan həmin məktəbin özünün və əhalinin böyük bir təbəqəsinin xəbəri yoxdur. Buna görə də bullinqin profilaktikası və bullinq baş verən zaman onunla necə mübarizə aparmağın əvvəlcədən hazırlanmış yolları da mövcud deyildir. Elinanın anasının dəfələrlə həmin məktəbə onun bu cür hallarla üzləşdiyini xəbər verdiyinə baxmayaraq məktəb rəhbərliyi heç bir addım atmamış və hətta onu müdafiə edən rəfiqəsini bullinq halı barədə xəbər verdiyinə görə qiymətləndirmək və bullinq haqqında öyrəndikdən sonra dərhal onun qarşısını almaq üçün tədbirlər görmək əvəzinə, Elinanı müdafiə etməyə davam edərsə özü də bu problemlərlə üzləşəcəyi ilə bağlı xəbərdar etmişlər. Bu kimi hallar Azərbaycanda təhsil sisteminin sosial haqların qorunmasını təmin edəcək ciddi dəyişikliklərə ehtiyacı olduğunu və bu dəyişiklikləri yubanmadan həyata keçirməyin vacibliyini bir daha göstərdi.

Dünya üzrə statistikaya nəzər salsaq 12-18 yaş arası uşaqlar arasında aparılmış sorğular nəticəsində onların 20%-nin bullinqlə üzləşdiyi məlum olmuşdur, 30% uşaq isə bu və digər formada bullinq törətdiyini etiraf etmişdir. Bullinqin baş verdiyi



an 85% hallarda ətrafda olan digər uşaqlar da buna şahid olurlar. Bullinq təkcə məktəbdə şagirdlər arasında yaşanmır, eləcə də universitet tələbələri arasında, iş yerlərində də bullinq halları müşahidə oluna bilər. Məktəbdə baş verən bullinq Azərbaycanda da ən çox yayılmış aqressiv davranışlardan biri olsa da indiyə qədər Azərbaycanda bullinq mövzusu araşdırılmamış və məsələnin sosial, psixoloji və kliniki tərəfləri öyrənilməmişdir. Buna görə də bullinqin xarakteri və profilaktikası ilə bağlı yazıdakı fikirləri daha çox ABŞ, Böyük Britaniya və digər Avropa ölkələri üzrə tədqiqat aparmış araşdırmaçıların tədqiqatlarından sitat gətirməklə əsaslandıracağam. Düşünürəm ki, bu ölkələrdəki məktəblərdə yaşanan bullinqin başvermə səbəbləri və təbiəti ilə Azərbaycan məktəblərində baş verən bullinq halları arasında tamamilə eynilik olmasa da oxşarlıqlar çoxdur. Ona görə də yazıda istifadə etdiyim ədəbiyyatlar üzrə olan trendlər Azərbaycanda baş verən bullinq hallarının səbəb və nəticələri haqqında ümumi mənzərəni



izah etməyə kömək edəcək.

**Şair, publisist, sosioloq Əhməd Qəşəmoğlu:** "Hadisənin səbəbi odur ki, təhsil sistemi, təhsillə bağlı olan ictimaiyyət hələ yaxşı əhəmiyyət verə bilmir ki, təcrübəli sosioloqun sözü nə deməkdir. 5-6 ildir sürətli şəkildə təbliğ edib, bu barədə danışıram ki, məktəblərimizdə sosial iş xidməti yaradılmalıdır. Orta, ali məktəblərdə sosial iş xidməti yaradılmalıdır. Bizim təhsil sistemində eşidiblər ki, xarici ölkələrdə sosial işçilər hazırlayırlar. Bunlar da moda xatirinə xeyli universitetlərdə, kolleclərdə sosial işçi ixtisası açıblar. Sənəd üzrə bizdə xeyli sosial işçi hazırlanır. Amma formal olaraq hazırlanır. Sosial işçilər ilk növbədə hazırlanmalıdır, başqa müəssisələrlə yanaşı təhsil müəssisələri üçün hazırlanmalıdır. İndi əvvəlki zaman deyil. Tək bir məktəb direktorunun nəzarəti ilə hər şey yüksək səviyyədə olsun. Cəmiyyət getdikcə mürəkkəbləşir. Mürəkkəbləşən cəmiyyətdə gedən proseslər də məktəbə axır. İndi məktəb direktoru, sinif rəhbəri 30-40-50 il bundan əvvəlki kimi təhsil qüvvəsinə malik deyil. Məktəblərdə psixoloq ştatı var. Bunların çoxu formal xarakter daşıyır. Buna isə çox sadə baxılır. Təcili şəkildə təhsil sistemində sosial iş xidmətləri yaranmalıdır. Onun üçün də, oraya hər kəsi işə götürmək olmaz. Bu aydan başlayaraq həmin Pedaqoji Universitetdə, onun kolleclərində sosial işçiləri xüsusi olaraq hazırlamaq lazımdır. O zaman hər bir məktəbdə iki, üç sosial işçi olsa, psixoloq yerlərini ləğv edib bura keçirmək olar. Onda onlar məktəbdə gedən proseslərə nəzarət edəcəklər. Lazım gələndə tövsiyə etdikləri metodlardan istifadə ediləcək. Eyni zamanda, mərkəzləşmiş sosial iş xidməti də ola bilər. Məktəblərdəki sosial işçilər çətinlik çəkəndə mərkəzləşmiş sosial iş xidmətindən də məsləhət ala bilərlər. Bunun başqa çıxış yolu yoxdur".

**Təhsil eksperti, STM əməkdaşı Elmin Nuri:** "Yeni tədris ilinin başlanmasından bir ay keçməsinə baxmayaraq qısa müddətdə xeyli sayda ciddi davranış pozuntuları, məktəbdaxili bullinq hadisələrinin şahidi olduq. Bunların hər biri dərəcə, miqyasından asılı olmayaraq arzuolunmaz hallardır. İstər paytaxt məktəblərin-



də, istər region məktəblərində bir ay içində bir neçə dəfə bıçaqlanma hadisəsi, bir neçə dəfə döyülmə hadisəsi, bir neçə dəfə bullinq və ciddi davranış pozuntusu hadisəsinin şahidi olduq. Tədris ili yeni start götürəndə bununla bağlı bir təhlil yazmış, həyəcan siqnalını səsləndirmişdik. Orada da, indi də bildirmək istəyirəm ki, bu istiqamətdə kifayət qədər sərt tədbirlər keçmək lazımdır. Ötən il bu hadisələri yalnız Elm və Təhsil Nazirliyinin ictimai şurasının müdaxiləsi nəticəsində qismən də olsa, gündəmdə qalır. Müsbət istiqamətdə həlli proqnozlaşdırılırdı. Amma Günel Səfərovanın bullinq hadisəsi baş verən yerə getməsi ilə iş bitmir. Əsaslı, ciddi bir qərar qəbul etmək və sistematik addımlar atmaq lazımdır. Çox gözləmək lazım deyil, çünki çox gözləmişik. Artıq şagird davranış pozuntuları, məktəbdaxili bullinq, məktəbdaxili digər neqativ hallarla yanaşı bizim mövqeyimiz həddindən artıq rəsmi qaydada sərt olmalıdır. Elm və Təhsil Nazirliyi bununla bağlı təcili təxirəsalınmaz addımlar atmalıdır. Az qala iki ilə yaxındır ki, şagird davranış qaydaları ilə bağlı məsələ vahid mərkəzləşdirilmiş şəkildə öz həllini tapmır. Bilirsiniz ki, iki il bundan əvvəl ictimaiyyətin müzakirəsinə çıxarıldı, bəzi detalları birmənalı qarşılanmasa da, çox məsələlərdə davranışın nizamlanmasına səbəb olan maddələr var idi. O yalnız bəzi məktəblərdə pilot olaraq həyata keçirilən layihə şəklində qaldı. Bu gün ölkənin az qala bütün məktəblərində bu davranış qaydalarının tətbiqinə ciddi ehtiyac var. Çünki bu gün bizim əksər məktəblərimizdə mütləq davranış cəhətdən çox ciddi pozuntulara səbəb olan, çətin tərbiyə olunan uşaqlar qrupu var. Bir çox hadisələrin də başında onlar durur. Belə uşaqlar adətən kriminal dünyaya maraqları ilə, etik çərçivəyə sığmayan hərəkətləri ilə, erkən yetkinlik dövrünün lazımsız liderliyə çevrilən hərəkətləri ilə özlərini diktə etməyə çalışırlar. Məktəb psixoloqlarımız da bir çox məktəblərdə öz işinin öhdəsindən obyektiv və subyektiv səbəblərdən gələ bilmirlər. Bu məsələlərdə mən onları günahlandırmıram. İndi dediyim ondan ibarətdir ki, gəlin ləngimədən şagird davranış qaydalarını hər bir bəndi ilə, ən ağır cəza mexanizmləri ilə tətbiqinə çalışaq. Onsuz da, o maddələr təhsil bilicilər, pedaqoqlar, psixoloqların, sosioloqların müəyyən komissiya tərəfindən yaradılıb. Mən şəxsən buradakı cəza mexanizmlərini deyil, ağır cəza mexanizmlərinə tamamilə razıyam. Ağır cəza mexanizmlərinə dördüncü və beşinci cəza aid edilib. Orada ciddi şəkildə xəsər yetirmə, sağlamlığa ziyan verəcək fiziki zor tətbiq edilməsi, bir çox ciddi bağışlanılmaz davranış xətaları uşağın məktəbdən çıxarılması, müəyyən mənada məsuliyyətə cəlb olunması ilə nəticələnə bilər. Biz bunu etməliyik. Bu gün bizim məktəblərdə təlim-tərbiyə işində də vəziyyət o qədər ürəkaçan deyil. Reallığın üzünə bir az dik baxmalıyıq. Real mənzərəni çılpaqlığı ilə görüb qərar verib və onun həlli istiqamətində çalışmalıyıq".

**Psixoloq Fidan Nizamova:** "Bu cür hadisələr müxtəlif səbəblərdən baş verir. Uşaqlar arasında aqressiya səbəbi də ola bilər. Evdə, yaxud məktəbdə sinif yoldaşından toplanmış aqressiyanın da nəticəsi ola bilər. Hansı ki, zamanında araşdırılmayıb. Onlar toplanıb bu şəkildə büruzə verir. Yaxud da, indi gənclər arasında, xüsusilə də, məktəblilər arasında kriminal aləmə maraq var. Oradan da yaranan addımlar olur. Sanki özlərini daha böyük, daha önəmli, daha hörmətli hiss etmək üçün uşaqlar özləri üçün uydurma bir kriminal həyatda görməyə başlayırlar. Bu da, təbii ki, ailə ilə bağlıdır. Bu cür ailələrdə oğlan uşaqlarının ataları anaları ilə az ünsiyyətdə olur. Evdə uşaqları çox da mənimsəmirlər. Onlar düşünür ki, bu cür kriminal aləmdə hörmətli şəxs kimi olarlarsa, özlərini daha önəmli hiss edəcəklər.



Burada digər faktlar da var. Bəzi gənclər, ümumiyyətlə, bu hadisənin, bu prosesin ciddiliyinin fərqinə varmırlar. Kinoda, hər hansı serialda bu cür şeylər görürlər, yaxud da, söhbətlərdə olurlar. Düşünürlər ki, hansısa problemi bu şəkildə həll etmək olar. Ona görə də istənilən halda hər şeyi oraya gətiririk ki, uşaqlar məlumatsızdır, maarifləmirlər, ailələri, məktəb tərəfindən maarifləmirlər.



Həm də dəstək yoxdur. İstənilən gəncin, uşağın problemi ailəsindən, məktəbindən başlayır. Maarifləmə işləri aparılmalıdır. Uşaqların yaşayış tərzləri ilə maraqlanan olmalıdır. Nəticədə düşünürəm ki, istənilən uşağın məsləhət almağa, paylaşmağa ünvanı olanda bu cür hadisələrin sayı azalar". Bullinqin baş verməsində hər zaman iki tərəf iştirak edir - bullinqi törədən və bullinqə məruz qalan. Lakin çox vaxt bullinqin baş verməsində üçüncü bir tərəfin də istər-istəməz iştirakı baş verir ki, buna da "şahid" və ya "kənarda duran" deyilir.

***Söylü Ağazadə***

# Ermənistanın növbəti iyrənc riyakarlığı

**Rəsmi İrəvanın Azərbaycanın reinteqrasiya təklifindən imtina Qarabağdan köçüb getmiş ermənilərin qayıdışından danışdığı halda, Ermənistandan qovulmuş azərbaycanlıların öz doğma yurdlarına dönüşündən danışmaması absurddur**

Ermənistandakı revanşist qüvvələr, qondarma rejimin tör-töküntüləri yenə də Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü təhdid edən təxribatçı açıqlamalar ilə çıxış edirlər. Onlar Qərbdəki havadarlarına arxalanaraq "beynəlxalq təminat altında Qarabağa qayıdış"dan dəm vururlar. Ancaq nədənsə beynəlxalq təsisatlar Qərbi azərbaycanlıların doğma yurd yerlərinə qayıdış hüququnu münaqişənin başlanmasından keçən 36 ildə bir dəfə də olsun gündəmə gətirməyiblər. Hər zaman susqunluq nümayiş etdiriblər. Azərbaycanlıların qayıtmasına imkan verməyərək onların mədəni irsini dağıtmaqda davam edirlər. Ermənistan azərbaycanlıların öz evlərinə qayıtmasına hazırlıq məqsədilə BMT-nin missiyasını və Azərbaycan mədəni irsinin vəziyyətinin qiymətləndirilməsi üçün UNESCO-nun faktaraşdırıcı missiyasını qəbul etməkdən imtina edir. Bundan əlavə, Ermənistan hökuməti Qərbi Azərbaycan İcmasının dialoq çağırışlarına cavab vermir. Belə bir şəraitdə öz ərazisində bir nəfər də olsun azərbaycanlı saxlamamış Ermənistan hökumətinin insan hüquqlarından danışaraq Azərbaycanı etnik təmizləmədə suçlaması ən mənfur riyakarlıqdır. Bütün bunlar Ermənistanın Azərbaycanofob siyasətini və ölkəmizə qarşı ərazi iddiasını bariz şəkildə göstərir. Ermənistan prezidenti Vahaqn Xaçaturyan yerli mətbuata müsahibəsində ermənilərin Azərbaycanın Qarabağ bölgəsinə qayıtması məsələsindən danışıb. Ermənistan prezidentinin sərsəm açıqlamasına cavab verən Qərbi Azərbaycan İcması yaydığı bəyanatda bildirib ki, Ermənistan rəhbərliyinin Azərbaycanın reinteqrasiya təklifindən imtina edib, Qarabağdan köçüb getmiş ermənilərin qayıdışından danışdığı halda, Ermənistandan qovulmuş azərbaycanlıların qayıdışından danışmaması absurddur: "Bu, Ermənistan tərəfinin ayrı-seçkilik siyasətini açıq şəkildə göstərir. Ermənistan rəhbərliyinin qayıdış məsələsində qarşılıqlılıq prinsipini gözardı etməsini və azərbaycanlıların Ermənistana qayıdış hüququnu pozmasını qətiyyətlə qınayırıq və Ermənistan hökumətindən azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə qayıdışına şərait yaratmağı tələb edirik".










Artıq Azərbaycan şanlı Zəfəri ilə tarixi ədaləti və ərazi bütövlüyünü bərpa edib. 30 il davam edən işğal dövründə ən yüksək tribunalardan Azərbaycanın dəyişməz mövqeyini bəyan edən Prezident İlham Əliyev bir qarış torpağımızın belə düşmənə verilməyəcəyini, işğalla barışmayacağımızı Ermənistana və ona havadarlıq edən dövlətlərə çatdırdı.

Bu torpaqlarda yeni həyatın başlanmasından sonra Qərbi Azərbaycana qayıdışın gündəmə gətirilməsi tarixi ədalətin bərpası istiqamətində növbəti addım kimi dəyərləndirilir. Prezident İlham Əliyev bildirmişdir: "Qarabağ dərdi, problemi olan yerdə Qərbi azərbaycanlıların hüquqlarından danışmaq bəlkə də vaxtından əvvəl atılan bir atəşə bənzəyə bilərdi. Amma bu gün tam haqlı olaraq bu mövzunu beynəlxalq arenaya çıxarmışıq. Qərbi azərbaycanlılar öz dədə-baba torpaqlarına qayıtmalıdırlar. Bu, onların hüququdur. Bütün beynəlxalq konvensiyalar bu hüququ onlar üçün tanıyır. Azərbaycan dövləti olaraq əlimizdən gələni etməliyik ki, bu hüququ təmin edək. Bunu sülh yolu ilə etmək istəyirik. Əminəm ki, buna nail olacağıq. Çünki bu gün ümumiyyətlə, Avrasiya məkanında monodövlətlər yoxdur və Ermənistan üçün də yaxşı olar ki, bu monodövlət damğasını öz üzərindən götürsün. Bunun ən yaxşı və ən ədalətli yolu Qərbi azərbaycanlıların öz doğma torpaqlarına qayıtmalarıdır."

Ümumiyyətlə, nəinki Ermənistan, bir sıra hallarda hətta beynəlxalq ictimaiyyət də azərbaycanlıların və ermənilərin qayıdış hüququna bərabər yanaşmırlar. Belə ki, ermənilərin Qarabağa qayıdış məsələsi qabardıldığı halda, azərbaycanlıların perspektivdə Qərbi Azərbaycana - tarixi torpaqlarına qayıtması barədə bir kəlmə də deyilmir. Halbuki azərbaycanlıların Qərbi Azərbaycana qayıdışı tamamilə beynəlxalq hüquqa uyğun olmaqla həm də tarixi ədalətin bərpasıdır. Üstəlik, Qərbi Azərbaycan, o cümlədən Zəngəzur, İrəvan, Göyçə tarixi Azərbaycan torpaqlarıdır. Ermənilər isə Qarabağa sonradan yerləşdiriliblər. Bu ərazilərdəki toponimlərdə heç bir erməni izinə rast gəlmək mümkün deyil. Hətta antropoloqlar arxeoloji araşdırmaları zamanı ermənilərin qalıqlarının iki əsrdən artıq bir zamanı əhatə etmədiyini vurğulayırlar. İrəvan xanlığı işğal edildikdən sonra Çar Rusiyası ilə Qacarlar arasında 1828-ci ildə imzalanan Türkmənçay müqaviləsinin 15-ci maddəsinə əsasən, İran və Osmanlı ərazisindən minlərlə erməni ailələri İrəvan, Qarabağ, Naxçıvan, Borçalı ərazilərində münbit torpaqlarda məskunlaşdılar. Onlar 6 il ərzində vergi və mükəlləfiyyətlərdən azad oldular. Çar Rusiyasının bu köçürmə siyasətinin məqsədi Osmanlı ilə Azərbaycan arasında bufer zona yaratmaq idi və bu məkrli plan baş tutduqdan sonra onun istiqamətləri daha da genişləndirildi. İstər Gülüstan, istərsə də Türkmənçay müqavilələri həm Qərbi, həm də Cənubi azərbaycanlılara qarşı xəyanətkarlıq aksiyaları idi. Qafqazda azərbaycanlılara qarşı aparılan məqsədyönlü soyqırımı siyasəti xalqımızın tarixində silinməz izlər qoydu. Bu, bir həqiqətdir ki, Qərbi Azərbaycan bizim bütöv Azərbaycanın bir parçasıdır. Azərbaycan xalqının mədəniyyət beşiyi olan Qarabağın erməni işğalçılarından azad edilməsi, Qərbi azərbaycanlıların öz ata-baba yurduna qaytarılması Ulu Öndər Heydər Əliyevin liderlik fəaliyyətinin əsas istiqamətini təşkil edirdi. 30 ilə yaxın işğal altında qalan torpaqlarımız ata vəsiyyətini yerinə yetirən Müzəffər Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə azad edildi. Artıq Azərbaycan xalqı öz əzəli-əbədi torpaqlarına sahibdir. 44 günlük Vətən müharibəsi Ermənistanın kapitulyasiyası, təxminən 30 il davam edən işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Qarabağın azad edilməsi ilə Azərbaycanın xarici və daxili siyasətində yeni prioritetlər meydana çıxdı. Azərbaycan Ordusu Qarabağı və Şərqi Zəngəzuru azad etməklə, artıq soydaşlarımızın bütün tarixi ata-baba torpaqlarına qayıdışını təmin etmək üçün yol açdı.

**Şəmsiyyə Əliqızı**

# İsveçrə Fransanın vassalı olduğunu nümayiş etdirdi



Tarixi reallıq ondan ibarətdir ki, bəzi ölkələr, xüsusilə də özlərini dünyanın aparıcı dövlətləri kimi təqdim etməyə çalışan böyük güclər bir ovuc ermənin əlində girova çevrilib. Bəzən bunun səbəbini Avropada və ABŞ-da erməni lobbisinin güclü olması və erməni faşizminin müəyyən siyasi, iqtisadi, maliyyə sferalarına nüfuz etməsi ilə əlaqələndirilir. Digər amil isə seçkilərdə namizədlərin erməni lobbisindən asılı olmasıdır. Məhz bu digər səbəblərlə əlaqədar olaraq ABŞ-ın və Avropanın bəzi siyasi dairələri erməni lobbisinin çaldığı hava ilə oynayır, onların tezislərindən geninə boluna istifadə edirlər. Xüsusilə də, Azərbaycana qarşı qərəzli, şər və böhtanlarda sözügedən ölkələr daha fəal iştirak edirlər. Vaxtaşırı olaraq Fransa, Niderland, Almaniya, ABŞ və digər erməni lobbisinin fəal olduğu ölkələr Azərbaycan əleyhinə qərəzli qətnamələr qəbul edir, separatçı çağırışlarla çıxışlar edirlər. Bu da ondan irəli gəlir ki, Azərbaycan regionun güc mərkəzidir, 44 günlük Vətən Müharibəsində 30 il erməni işğalı altında olmuş torpaqlarını azad edərək ərazi bütövlüyünü bərpa edib. Eyni zamanda, 2023-cü il sentyabrın 19 başlayan və 23 saat 44 dəqiqə çəkən antiterror tədbirləri ilə Qarabağdakı erməni silahlı terrorçularını məhv edərək separatizmə son qoyub. Artıq Qarabağımız inkişaf edir, insanlar öz doğma yurd-yuvalarını qayıdaraq tarixi yurd yerlərinə yeni nəfəs verirlər. Bütün bunları həzm edə bilməyən xarici ermənipərəst dairələr hər cür çirkin vasitə və üsullardan istifadə etməklə Azərbaycanın hərbi, siyasi, diplomatik qələbələrinə kölgə salmağa çalışırlar. Bu isə onların ermənilərdən, xüsusilə də erməni lobbisindən asılı vəziyyətdə olduqlarını göstərir. Halbuki, dünyada sülhün və təhlükəsizliyin təmin olunmasında, Avropanın enerji təhlükəsizliyinə Azərbaycan önəmli rol oynayır. Regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı və milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir.

### Regionda istənilən layihə ölkəmizin razılığı olmadan reallaşması mümkün deyil

Azərbaycanın güclü dövlət olmasının nəticəsidir ki, regionda istənilən layihə ölkəmizin razılığı olmadan reallaşması mümkün deyil. Beynəlxalq miqyaslı layihələrin icra olunması və tərəfdaş ölkələrlə səmimi əməkdaşlıq əlaqələrin qurulması Azərbaycana olan inam və etimadın daha da artmasına təkan olub. Azərbaycan Prezidentinin yürütdüyü uğurlu xarici siyasət nəticəsində ölkəmiz 2012-ci ildə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi, dünyada beynəlxalq təşkilatlar Ermənistanı işğalçı dövlət kimi tanıdı. Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına 2019-2023-cü illərdə sədrlik etməsi müasir Azərbaycanın beynəlxalq miqyasda nüfuzunu və qüdrətini göstərir. Prezident İlham Əliyevin dünyada sülhü və konstruktiv əməkdaşlığı tərənnüm edən beynəlxalq təşəbbüsləri qlobal təşkilatların gündəliyinə daxil olunur. Noyabr ayında Azərbaycanda keçiriləcək COP29 konfransı dünyada ekoloji problemlərin həlli baxımdan mühümü konfrans olacağı şübhəsidir. Görünən isə ondan ibarətdir ki, dünyanın bəzi separatçılığı dəstəkləyən dövlətləri Azərbaycana müxtəlif şər və böhtanları ilə təzyiq etməklə COP29 konfransının əhəmiyyətini azaltmağa çalışırlar. Hətta vəziyyət bəzi məqamlarda o həddə çatıb ki, Fransa, ABŞ, Niderland, Almaniya kimi şər yuvaları özləri Azərbaycan qarşı "Səlib" yürüşlərində bacarıqsız olduqlarını anlayaraq sıralarına digər dövlətləri də qoşmağa çalışırlar. İsveçrə Milli Şurasının (parlamentin aşağı palatası) Xarici Əlaqələr Komitəsinin Fransanın təzyiqi və təsiri ilə Azərbaycanla bağlı separatçı məsələləri müzakirə edib, qərar qəbul etməsi deyilənlərə misal ola bilər. Beləki, İsveçrə Milli Şurasının (parlamentin aşağı palatası) Xarici Əlaqələr Komitəsinin təqdim etdiyi təklifdə Federal Şura Qarabağdan rədd olub gedən ermənilərin məsələsi ilə bağlı beynəlxalq sülh forumunun təşkilinə çağırılır. Məqsəd Qarabağda yaşamış erməniləri təhlükəsiz və kollektiv şəkildə geri qayıtması məqsədi ilə danışıqların aparılması üçün beynəlxalq nəzarət altında və ya beynəlxalq səviyyədə müvafiq aktorların iştirakı ilə ermənilərlə müzakirələrin aparılmasıdır.

### Erməni terrorunu dəstəkləməsi İsveçrənin neytral dövlət imicinə sarsıdıcı zərbədir

Belə bir məsələnin müzakirə edilməsi İsveçrənin neytral dövlət imicinə sarsıdıcı zərbədir. Digər tərəfdən İsveçrə ilə Azərbaycan arasında geniş formada iqtisadi, mədəni əlaqələr mövcuddur. 2018-ci il martın 13-də İsveçrə Parlamenti Kantonlar Şurasının (yuxarı palata) Xarici Əlaqələr Komitəsini sədri, İsveçrə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Filippo Lombardi Bakıya səfər etmişdir. Səfər çərçivəsində o, ilk olaraq Azərbaycan Respublikası Milli Məclisi və ATƏT PA-nın "İpək Yoluna Dəstək Qrupu"nun birgə təşkil etdiyi "İpək Yolu boyunca iqtisadi əməkdaşlıq və mədəni əlaqələrin inkişaf etdirilməsində parlamentarilərin rolu" mövzusunda beynəlxalq konfransda iştirak etmiş və nitq söyləmişdir. Öz nitqində F.Lombardi "İpək Yoluna Dəstək Qrupu"nun yaradılması və onun ilk konfransının Bakıda keçirilməsinə görə Azərbaycan tərəfini təbrik etmiş, eləcə də İsveçrənin İpək Yolunda iştirak etməyə marağını ifadə etmişdir. İki dövlət arasında əlaqələrin inkişaf etdiyi bir vaxtda İsveçrə Milli Şurasının (parlamentin aşağı palatası) Xarici Əlaqələr Komitəsinin Makron rejiminin tələbi ilə separatçı müzakirələr aparıb, çağırışlar etməsi əlaqələrin ruhuna ziyan verir. Təbii ki, İsveçrə dövləti reallıqları anlamalı və səhvin düzəldilməsi üçün hərəkətə keçməlidir. "Biz, İsveçrə Federal Məclisinin Xarici Siyasət Komissiyası tərəfindən irəli sürülmüş, ölkəmizə qarşı qərəz və böhtana əsaslanmaqla, İsveçrə hökumətinə "Azərbaycan hökuməti və Qarabağdan olan ermənilər arasında bir konfrans təşkil etmək" çağırışı edən təklifi qınayırıq". Bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında deyilir. Sənəddə yer almış ölkəmizin ərazi bütövlüyü və suverenliyinə, beynəlxalq hüquqa zidd yanaşma və böhtan dolu fikirlər onun müəlliflərinin əsl niyyətinin heç də sülh və dialoqu təşviq etmək olmadığını göstərir.

Xatırladaq ki, Azərbaycan hökuməti Qarabağdan olan ermənilərin reinteqrasiyası üçün planlarını ictimaiyyətə açıqlamış və ötən il onlarla dialoq aparmışdır. Lakin Qarabağdan olan ermənilər dialoqdan və Azərbaycanın reinteqrasiya təklifindən imtina etmişlər. "Belə olan şəraitdə İsveçrənin birtərəfliyinə istinad edib, bədnam gündəlik və formatla "dialoq"a çağırış etmək bu ölkənin bitərəf statusundan sui-istifadədir və regiondakı vəziyyəti gərginləşdirməyə xidmət edir. Regiondan xəbəri olmayan dairələrin Azərbaycanın daxili işlərinə qarışan bu cür cəhdləri təkəbbürlü yanaşma olmaqla, tamamilə qəbuledilməzdir. Vurğulamaq istərdik ki, Qarabağ münaqişəsi artıq beynəlxalq hüquqa uyğun olaraq öz həllini tapıb. Buna baxmayaraq, son dövrlər bəzi qərb dairələrinin regionda yenidən münaqişə yaratmaq cəhdlərini müşahidə edirik. İsveçrə parlamentində irəli sürülmüş son təşəbbüs də bunun tərkib hissəsidir.

İsveçrə parlamentinə xatırladırıq ki, dialoqa çağırılmalı olan öz ərazisindən azərbaycanlıları zorla çıxarmış olan Ermənistan hökumətidir. Qərbi Azərbaycan İcması dəfələrlə Ermənistan hökumətinə dialoq üçün müraciət etsə də bu, cavabsız qalmışdır. Bundan əlavə, məhz azərbaycanlıların Ermənistana qayıdışı üçün beynəlxalq nəzarət altında olan proses təşkil edilməlidir.

Qərbi Azərbaycan İcması olaraq, üzvləri tərəfindən son günlərdə Azərbaycana qarşı iki sənəd irəli sürülmüş İsveçrə parlamentini sözügedən qərəzli və zərərli addımları dayandırmağa çağırırıq. Biz, İsveçrə parlamentinin üzvlərindən Ermənistan tərəfindən qovulmuş azərbaycanlılara qarşı ayrı-seçkiliyə son qoymağı və onların təhlükəsiz və ləyaqətli şəkildə öz evlərinə qayıtmaq hüququna hörmət etməyi tələb edirik", - bəyanatda deyilir.

### ABŞ hakimiyyəti erməni lobbisinin əlində alət olub

Ümumiyyətlə fakt ondan ibarətdir ki, Azərbaycanın separatizmi ləğv etməsi və bölgədə sülhə, əmin-amanlığa töhfə ola biləcək addımlar atması ABŞ, Fransa, Almaniya, Niderland kimi dövlətləri ciddi narahat edir. Çünki onlar bölgədə status-kvonun saxlanmasında maraqlıdılar. Bir qədər əvvəl, yəni 2023-cü il noyabrın 15-də ABŞ Konqresinin Nümayəndələr Palatasında "Dağlıq Qarabağın gələcəyi" mövzusunda keçirilmiş dinləmələr bunun daha bir nümunəsi sayıla bilər. Dinləmələrin keçirilməsinə ən çox dəstək verən ABŞ-dakı erməni lobbisi olub. Bu da onu deməyə əsas verir ki, dünyanın aparıcı dövləti kimi özünü təqdim etməyə çalışan ABŞ, əslində, Kardaşyan kimi fahişə modellərin əlində alət olub. Nəzərə almaq lazımdır ki, qondarma tədbirdən öncə tədbirin təşkilatçısı Konqresin Avropa məsələləri üzrə alt komitəsinin sədri Tomas Kin Ermənistanın ABŞ-dakı səfiri Lilit Makuns ilə görüşüb. Görüşün 5 saata qədər davam etməsi onu təsdiq edir ki, tərəflər Azərbaycana qarşı necə şər və böhtanlar səsləndirmək, iddialar və ittihamlar irəli sürmək məsələlərini geniş və əhatəli şəkildə müzakirə edib, razılaşma əldə ediblər. Dinləmələr gözlənildiyi kimi erməni lobbisinin tələblərinə uyğun keçirilib. Tomas Kin ermənilərin Qarabağdan guya etnik təmizləmə yolu ilə çıxarılması məsələsinə etiraz edərək deyib ki, Birləşmiş Millətlər Təşkilatının Komissiyası və Beynəlxalq Qırmızı Xaç Komissiyasının Ermənistana köç edən Qarabağ ermənilərini ilə bağlı xüsusi arayışı var. Orada çox aydın şəkildə yazılıb ki, onlar Qarabağdan etnik təmizləmə ilə məcburi şəkildə köçürülməyib. Özləri könüllü şəkildə köçüb gediblər. Təbiidir ki, bütün bunları Tomas Kin də bilir. Sadəcə, Azərbaycanın Qarabağda əldə etdiyi qələbəsinə, insanlarımızın öz yurd-yuvalarına qayıdışına qısqanclıqla yanaşmalar nümayiş etdirilib. Bu anormal müzakirələrdən sonra ermənipərəst konqresmenlər Azərbaycan yardımların azaldılacağı barədə çıxışlar da ediblər. Ancaq bunlar anlamırlar ki, zatən Amerika Birləşmiş Ştatları Azərbaycana Ermənistandan qat-qat az yardımlar göstərir. Bununla yanaşı qeyd olunmalıdır ki, ölkəmizin hər hansı kənar yardımlara ehtiyacı yoxdur.

Tarixin arxivinə göndərilmiş "DQR"ı dirçəltmək və Qarabağdan könüllü olaraq rədd olub getmiş erməniləri yenidən bölgəyə gətirmək xəyalları boş xülyalardan başqa bir şey ola bilməz. Əgər istək varsa, o zaman Qərbi Azərbaycanlılar da İrəvana, Gorusa, Qafana və digər tarixi yurd yerlərinə qayıtmalıdırlar. Hələ bu günə qədər separatizmi dəstəkləyən dövlətlər və onların siyasətçiləri indiki Ermənistan ərazisindən qovulmuş 300 min azərbaycanlıların öz evlərinə qayıtmasının vacibliyi barədə bir dəfə də olsun fikir söyləməyiblər, təklif və ideya ilə çıxış etməyiblər. Bu isə bir daha ikili standartların göstəricisidir.

***İLHAM ƏLİYEV***

# “Oğlum barmaqlarını göstərəndə ürəyim ağrıyır”

## ŞİKAYƏTÇİ NƏLƏRİ DANIŞDI?

***Son zamanlar xüsusilə 1-ci sinif şagirdlərinin valideynləri dərs yükünün ağır olması barədə şikayətlənir. SİA xəbər verir ki, onlardan biri də 1-ci sinif şagirdi Yusif Piriyevin anası İlqanə Piriyevadır. İlqanə Piriyeva saytımıza şikayətini bildirərək qeyd edib ki, 1-ci sinif şagirdi üçün dərsliklərin həm tərkibi, həm də özü çox ağırdır: ”7 kitabdır. Bu 7 kitabın hərəsinin ayrı iş dəftəri, lüğəti və s. var. Bunlar çox ağırdır. Bizə 5-ci sinifdə tədris olunan dərslər övladlarımıza 1-ci sinifdən tədris edilir. Axı, hamının uşağının qavrayışı eyni deyil. Bu uşaqlar körpədir, onların 6 yaşları var. Bu qədər yükləmək nə dərəcədə doğrudur?! Səhər saat 8-də dərs başlayır. Saat 12-ə işləmiş dərs bitir və 1 tamam kimi hazırlıqda vaxt keçirir. Təsəvvür edin, 2 saat hazırlıqda qalır və bu 2 saat Yusifin dərslərinin tam bitməsinə yetmir. Evə gəlir 1-2 saat dincəlir yenə başlayırıq axşama kimi dərs oxumağa. Bilirəm ki, bu tək bizim evdə belə deyil. Bir çoxları eyni problemi yaşayır.***









Oğlum barmaqlarını göstərəndə ürəyim ağrıyır. Uşağın barmaqları gömgöydür. Normaldır, yaşı azdır, yaza bilmir. Boş-boş şəkillər çəkdirib, materiallar hazırladırlar. Keçən il məktəbəqədər hazırlıqda da belə idi. Ailə ağacı hazırlatdırırlar. 6 yaşlı uşaq bunu necə etsin? Həddindən artıq narazıyıq. Uşaqlara çox çətindir. Təsəvvür edin, müəllim evə tapşırıq verir və uşaq bunu necə həll edəcəyini bilmir. Dərdimizi kimə söyləyək? Həm valideynin, həm də uşağın işi çox çətindir”.

Mövzu ilə bağlı təhsil eksperti Kamran Əsədov da fikir bildirib. Onun sözlərinə görə, Azərbaycanda 1-ci sinif şagirdlərinin tədris proqramı ilə bağlı narazılıqlar son illərdə artmaqdadır: ”Xüsusilə, valideynlər tərəfindən səsləndirilən əsas tənqidlərdən biri şagirdlərin dərsliklərinin və ümumi tədris yükünün yaşlarına uyğun olmamasıdır. 6 yaşlı uşaqların qarşısına qoyulan tədris həcmi onların psixoloji və fiziki inkişaflarına mənfi təsir göstərə bilər, çünki bu dövrdə uşaqların qavrama səviyyəsi fərqlidir və hər kəs eyni templə öyrənə bilmir.

Birinci siniflərdə tədris olunan dərslərin çoxluğu və ağırlığı təkcə məzmunun mürəkkəbliyi ilə deyil, həm də fiziki olaraq kitabların və digər materialların həddindən artıq olması ilə əlaqədardır. 7 əsas dərs kitabı, onların hər birinin iş dəftərləri, əlavə lüğətlər və digər materiallar şagirdlərin çantalarını həddindən artıq ağırlaşdırır. Bu, təkcə Azərbaycanda deyil, bir çox digər ölkələrdə də narazılıqla qarşılanır. Məsələn, Finlandiya kimi təhsil sistemində dərsliklərin sayının minimuma endirilməsi və daha çox praktik öyrənməyə yer verilməsi diqqətəlayiq təcrübədir. Orada şagirdlər daha çox təcrübə ilə öyrənir və bu, onların yükünü yüngülləşdirir.

Tədris gününün uzunluğu və bununla bağlı dərsdən kənar hazırlıqlar da əlavə problem yaradır. Şagirdlər, xüsusilə birinci sinif şagirdləri, gündəlik olaraq çox uzun saatlar dərslərlə məşğul olurlar. Bu, onların həm psixoloji, həm də fiziki yüklənməsinə səbəb olur. Səhər saat 8-dən başlayan dərslər günortaya qədər davam edir və dərsdən sonra da əlavə hazırlıq dərsləri keçirilir. Bu da şagirdlər üçün uzunmüddətli yorğunluğa gətirib çıxarır. Uşaqların günün böyük hissəsini dərslərlə keçirməsi onların istirahət vaxtını məhdudlaşdırır, oyun, sosial fəaliyyətlər və digər inkişafedici fəaliyyətlər üçün zaman qalmır.

Bundan əlavə, bu yaşda olan uşaqların incə motor bacarıqları tam inkişaf etmədiyi üçün yazı yazmaqda çətinlik çəkə bilirlər. Valideynlər də şikayət edir ki, uşaqların barmaqları yazı yazmaqdan zədələnir və bu, həm onların fiziki, həm də mənəvi rahatlığını pozur. Şagirdlərin bu cür yüklənməsi onların məktəbə qarşı mənfi münasibət formalaşdırmasına və gələcəkdə tədrisə maraqlarının azalmasına səbəb ola bilər. Beynəlxalq təcrübəyə əsasən, birinci sinif şagirdlərinin tədris yükü daha çox praktiki və oyun əsaslı öyrənmə üzərində qurulmalıdır. Məsələn, Skandinaviya ölkələrində, xüsusilə Finlandiyada, uşaqların ilk təhsil illərində daha az dərslik və daha çox praktiki təlimə yer verilir. Uşaqlar oyunlar vasitəsilə öyrənir və bu zaman onların tədris yükü azaldılır. Belə yanaşmalar, uşaqların daha az stress keçirməsi və məktəb mühitinə uyğunlaşması üçün əlverişlidir.

Azərbaycanda isə məktəbəqədər hazırlıqda belə uşaqlara ailə ağacı, material hazırlama kimi mürəkkəb tapşırıqlar verilir ki, bu da uşaqların yaşına uyğun deyil. Bu cür layihələr onların kognitiv bacarıqlarına və inkişaf səviyyələrinə uyğun olmalıdır. Belə layihələr, əsasən valideynlər tərəfindən icra edilir və nəticədə uşaqların özləri əvəzinə valideynlər bu işləri yerinə yetirir, bu da öyrənmə prosesinin effektivliyini azaldır.

Nəticə olaraq, birinci sinif şagirdlərinə verilən tədris yükü azaldılmalı və onların təhsil proqramları yaşlarına və inkişaf səviyyələrinə uyğun şəkildə yenidən tərtib olunmalıdır. Bu prosesə nəzəriyyə ilə yanaşı, daha çox praktiki öyrənmə üsulları daxil edilməlidir. Azərbaycan təhsil sistemi beynəlxalq təcrübələrdən faydalanaraq, uşaqların məktəb həyatını daha rahat və maraqlı hala gətirə bilər”.

***Ayşən Vəli***

# Qan xərçənginin əsas yaranma səbəbləri NƏDİR?

## HƏKİM FAKTLARI AÇIQLADI







**“Qan xərçənginin yaranma səbəbləri çoxdur. Amma konkret nədən yarandığını demək olmaz”. Bu sözləri SİA-ya açıqlamasında Hematologiya və Transfuziologiya mərkəzinin pediatrik bölməsinin rəhbəri, Tibb Elmləri Doktoru, professor, Həkim-hematoloq Mireldar Babayev deyib.**

O bildirib ki, ekologiyanın, radiasiyanın, radiasiyaya məruz qalmış yerlərin bu xəstəliyi yaratma riski yüksəkdir: ”Genetik meyillilinin, stressin də rolu var. Bəzi viruslar var ki, bu xəstəliyin yaranmasında böyük rolu olur. Konkret olaraq ”bu xəstəlik hansı səbəbdən yaranır?” sözünü demək qeyri-mümkündür.

Qohumluq əlaqələrinin rolu yoxdur. Çünki qan xərçəngi irsi ötürülən xəstəlik deyil. Amma irsiyyətin rolu dolayısı ilə var. Genlə ötürülmə yoxdur, genefonun zəif olması, xromosom aparatının zəif olması, daxili və xarici faktorların təsirindən tez mutasiyaya uğraması riski var. Belə insanlarda, əlbəttə, digərləri ilə müqayisədə xəstəliyin rast gəlinmə faizi daha yüksək olur. Elə olur ki, uşaq xəstədir, atasında da beyin şişi olub, babasında da mədə şişi olub. Belə tanıdığım insanlar var. Görünür ki, burada xromosom aparatının zəif olması və hansısa faktorun təsiri ilə mutasiyaya uğraması xəstəliyin yaranmasına səbəb olur.

Ümumiyyətlə, bütün insanlarda şiş xəstəliyi yarana bilir. Şiş geni üzərində möhkəm nəzarət də var. Həmin nəzarətin zəifləməsi baş verdiyi halda genin oyanması və xəstəliyin yaranması baş verir. Qan xərçənginin müalicəsi var. Qan xərçəngindən sağalma şansı yüksəkdir. Əvvəlki 50-100 ildə bu xəstəlik sağalan xəstəlik sayılmırdı. Azərbaycanda da hər zaman xəstənin yaxın vaxtlarda həyatdan gedəsi olduğu düşünülürdü. Amma keçən əsrin 60-cı illərindən tibdə yaranan yeniliklər bu xəstələrin sağalmasına yol açdı. Artıq 20 ilə yaxındır ki, biz Moskvada uzun illər təhsil alıb, sonra gəlib bu xəstəliyin Azərbaycanda sağalmasının mümkün olduğunu deyib aldığımız təhsilin əsasında bunu təsdiqlədik. Xüsusilə, xəstə uşaqların sağalma faizi bu gün Azərbaycanda çox yüksəkdir”.

”Qan xəstəlikləri çox böyük məfhumdur. Buraya təkcə qan xərçəngi deyil, irsi qan xəstəlikləri, polisimiya, hemofiliya, qan yaranmanın pozulması, qan laxtalanmasının pozulması, sümük iliyinin yetərsizliyi və sair aiddir. Bunların hər biri haqqında danışanda onları yaradan səbəbi demək olar” - deyə həkim əlavə edib.

***Söylü Ağazadə***

# Seçkilərə, yoxsa toqquşmaya?

## Avropa İttifaqı Gürcüstanla bağlı hökm verdi

***Gürcüstanda parlament seçkilərinə cəmi 9 gün qaldı. Əsəblər tarıma çəkilib, tərəflər qələbə üçün əsl savaşa çıxıblar. Siyasətçilər hətta bu seçkilərin Cənubi Qafqaz üçün həyati əhəmiyyətli hadisə kimi xarakterizə edirlər. Gürcüstanda tərəflərdən birinin qələbəsi o cəbhənin regiona hakimlik edəcəyini söyləyənlər də var. "Gürcü Arzusu" partiyasının yaradıcısı Bidzina İvanişvili bildirib ki, onun partiyası Tbilisinin "ləyaqətini qoruyaraq" Avropa İttifaqına daxil olması üçün lazım olan hər şeyə malikdir. "Cavab olaraq xarici qüvvələr hələ də müharibə, xaos və yoxsulluq istəyir, bu da ölkənin məhvinə gətirib çıxarır", o qeyd edib. İvanişvili buna baxmayaraq, hələ də Aİ-yə qoşulmağa həvəsli kimi görünür, lakin Brüssel hər şeyi öz yerinə qoymağa hazırlaşır.***

Reuters xəbər verir ki, oktyabrın 17-dən 18-dək Brüsseldə keçiriləcək Aİ sammiti zamanı Aİ liderləri Gürcüstan hakimiyyətinin öz ölkələrinin Avropaya inteqrasiyasını təhlükə altına atdığını söyləyəcəklər. Xatırladaq ki, Tbilisi 2023-cü ilin dekabrında Aİ-yə üzv olmaq üçün namizəd statusu alıb, sonra isə xarici agentlərə və cinsi azlıqlara qarşı bir sıra qanunlar qəbul edib. Eyni zamanda, respublika rəhbərliyi Qərbin "müharibə partiyasını" (konkret siyasətçilərin və ya onların








ölkələrinin adını çəkmədən) Gürcüstanda Rusiyaya qarşı ikinci cəbhə açmağa çalışmaqda ittiham edir. Bu baxımdan Avropa dövlətlərinin başçıları Tbilisinin Moskva ilə yaxınlaşmağa doğru getdiyini bəyan edəcək və oktyabrın 26-na təyin edilmiş "azad və ədalətli parlament seçkiləri"nin keçirilməsini arzulayacaqlar.

Almaniya xarici işlər nazirinin müavini Anna Luhrmann da Avropa İttifaqında hökm sürən əhval-ruhiyyəni təsdiqləyib. Onun sözlərinə görə, Aİ gürcülərin Avropa istəklərini dəstəkləməkdə davam edəcək, lakin onların hazırkı hökumətini yox. "Gürcüstan xalqının öz yolunu sərbəst seçmək hüququna malik olması vacibdir. Ona görə də azad və ədalətli seçkilər həqiqətən vacib məsələdir", - diplomat bildirib.

Bu bəyanatın sətirləri arasında müxalifətin qələbəsinə ümid bəsləmək asandır. Ona görə də bir il əvvəl "Gürcü arzusu"nun barışmaz rəqibinə çevrilən Gürcüstan prezidenti Salome Zurabişvili "Financial Times" qəzetinə müsahibəsində hadisələri qabaqcadan görmək, yəni öncəgörənlik etmək qərarına gəlib. Onun fikrincə, hakimiyyətdə olan partiya yalnız seçici saxtakarlığı yolu ilə qalib gələ bilər. Eyni zamanda o, 2012-ci ildən "Gürcü Arzusu"nun cəmiyyəti qütbləşdirmək və əhalini qorxutmaq siyasəti yürütdüyünü vurğulayıb.

"Rusiyada varlanan oliqarx Bidzina İvanişvilinin rəhbərlik etdiyi "Gürcü arzusu" hökumət rəsmilərinə ona səs verməyə təzyiq edir, müxalifət fəallarına hücum edir, jurnalistləri hədələyir və xaricdə yaşayan vətəndaşların səs verməsini çətinləşdirir", - Zurabişvili vurğulayıb. Öz növbəsində, Avropa diplomatiyasının rəhbəri Josep Borrell Gürcüstan hakimiyyətini avtoritarizmə doğru getməkdə ittiham edib. "Hakim partiyanın son hərəkətləri, bəyanatları və seçki vədləri ölkəni Avropa yolundan uzaqlaşdırır və avtoritarizmə doğru gedişi ifadə edir... Bilirsiniz ki, Avropa Komissiyası Avropanın maliyyə vəsaitlərinə çıxışla bağlı qərar qəbul edir. Ona görə də gəlin Gürcüstan demokratiyası və onun Avropaya inteqrasiyası üçün həlledici sınaq olacaq parlament seçkilərini gözləyək", - Borrell bildirib.

Lakin "Gürcü arzusu" ümidsizliyə qapılmır. Məsələn, Tbilisinin meri Kaxa Kaladze bildirib ki, müasir Avropa İttifaqı SSRİ-dən heç nə ilə fərqlənmir, ona görə də ora inteqrasiyaya ehtiyac yoxdur. "Mədəniyyətimizdən və adət-ənənələrimizdən imtina etməliyiksə, Aİ-yə daxil olmağımızın nə fərqi var?" - mer bildirib. Bundan əlavə, baş nazir İrakli Kobaxidze seçicilərini Rusiya-Ukrayna münaqişəsi bitən kimi Avropa İttifaqı və ABŞ-ın onun hökumətinə münasibətini dəyişəcəklərinə inandırıb. "Bizim üçün bir şey vacibdir. Ukraynada döyüşlər bitən kimi - bu gələn il də olacaq - Aİ və ABŞ ilə münasibətlər bərpa olunacaq... Birinci cəbhə bitən kimi ikinci cəbhənin Gürcüstana marağı dərhal dayanacaq", - Kobaxidze əmin edib.

Eyni zamanda, "Gürcü arzusu"nun nümayəndələri israr edirlər ki, onları seçicilərin təxminən 60%-i dəstəkləyir. Bu baxımdan, hakim elita müxalifətin seçkilərdə qələbə qazanacağına inanmır, lakin xəbərdarlıq edir ki, onların rəqibləri xarici tərəfdaşların dəstəyi ilə iğtişaş yarada bilər. Lakin təhlükəsizlik qüvvələri "Gürcü Arzusu"nun qələbəsini müdafiə edəcəkləri üçün onların sonu heç nə ilə bitməyəcək.

Bundan sonra qaliblər müxalifəti vətənə xəyanətdə ittiham edərək məhkəmə prosesini təşkil etmək arzusundadırlar. Artıq iqtidaryönlü ictimai təşkilatlar müxalifətə səs verməyə hazır olanları təqib etməyə çağırır. Məsələn, Birləşmiş Neytral Gürcüstan hərəkatı onları "övladlarını və ölkənin gələcəyini məhv etməkdə" ittiham edib. Düzdür, gürcülərin əksəriyyəti gələcək dəyişikliklərdən o qədər də narahat deyil. "Əgər siz mediadakı yazılara diqqət yetirməsəniz və siyasi fəallarla ünsiyyət qurmasanız, bir həftədən sonra ümumiyyətlə seçkilərin olmayacağını düşünə bilərsiniz. Bütün bu qütbləşmə və çevrilişə hazırlıq əsasən mediada baş verir. Eyni zamanda, insanların çoxu siyasətlə qətiyyən maraqlanmır", - analitik Demuri Giorkhelidze bildirib.

Politoloq Nika Çitadze də onunla razılaşır. Onun sözlərinə görə, küçələrdə, əsasən, "Gürcü Arzusu" üçün seçki kampaniyası görünür, lakin ümumilikdə Tbilisidə siyasi aktivlik müşahidə olunmur. "Bazar günü paytaxtda müxalifətin kütləvi mitinqi keçiriləcək. Yəqin ki, o qədər adam olacaq ki, bütün mərkəz bağlanacaq. Amma bundan əvvəl nəzərə çarpacaq hərəkətlər olmayıb. Digər tərəfdən, iqtidaryönlü və müxalif siyasi fəallar seçkilərdən sonra toqquşmaya hazırlaşırlar", - Çitadze deyir.

Bu arada adi gürcülər ayaqları ilə səs verirlər. Gürcüstan Milli Statistika Xidmətinin oktyabrın 15-də açıqladığı məlumatlara görə, 2014-cü ildən 2023-cü ilə qədər 815 608 nəfər ölkəni tərk edib. Eyni zamanda, 2022-ci ildə əhalinin xaricə axını 118 min nəfər, 2023-cü ildə isə demək olar ki, 163,5 min nəfər təşkil edib ki, bunun da 70 faizini 30 yaşa qədər olanlar təşkil edib. Ümumilikdə respublikada 3,7 milyondan az insan yaşayır.

**V.VƏLİYEV**

# Ermənistanda rusiyayönlü məmurlar niyə işdən azad edilir?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb*



***Ermənistanın dövlət sistemində bir gündə üç istefa baş nazir Paşinyanın anti-Rusiya xəttinə uyğundur,- Ermənistanın ”Hraparak” qəzeti yazır. Qeyd olunur ki, hakimiyyət Rusiya Federasiyasına simpatiyası olan erməni məmurları vəzifəsindən uzaqlaşdırmaq niyyətindədir. Qəzet xatırladır ki, oktyabrın 9-da Paşinyan ”elektrik enerjisinin keyfiyyətində problemlər və onların həlli imkanlarına” həsr olunmuş iclas keçirib. Bundan sonra Rusiya ilə əlaqəsi olan 3 məmur istefa verib:***









- Dövlət Xidmətlərini Tənzimləmə Komissiyasının rəhbəri Qaregin Baqramyan;
- Ərazi idarəetmə və infrastruktur nazirinin müavini Akop Vardanyan;
- İqtisadiyyat nazirinin müavini Narek Teryan.

Sonuncu nazir müavini təyin olunana qədər Rusiyada işləyib: o, VTB Qrupunun layihələrinə rəhbərlik edib və Rusiyanın kommersiya banklarında rəhbər vəzifələrdə çalışıb.

Paşinyanın Ermənistanda rusiyayönlü hökumət rəsmilərinə qarşı hücuma keçdiyini güman etmək olarmı? İndiki şəraitdə nə dərəcədə aktiv ola bilər? Bəs bu, Rusiya-Ermənistan münasibətlərində hansı nəticələrə səbəb ola bilər?

Tanınmış erməni və azərbaycanlı analitiklər bu sualları ”Caliber” analitik mərkəzinə cavablandırıb. Ekspertlərin şərhlərini oxucularımıza təqdim eidirik.

## ”Bu siyasət altı ildir davam edir və heç də uğursuz deyil!”




Ermənistan Politoloqlar Assosiasiyasının prezidenti, siyasi elmlər doktoru Hmayak Hovannisyanın qeyd etdiyi kimi, Robert Köçəryan və Serj Sarkisyanın rəhbərlik etdiyi parlament müxalifəti ölkədə hakimiyyətin qaytarılmasına dair bütün ümidləri Moskvanın dəstəyinə bağlayır. Bu ”müxalifətin” ruporu olan qəzet Paşinyanın ”anti-Rusiya xətti” mövzusunu vurğulayır.

”Bu, Ermənistanda parlament müxalifətinin infantilizminin növbəti sübutudur- başqa heç nə. Sözügedən istefalara gəlincə, əhalinin Dövlət Xidmətlərinin Tənzimlənməsi Komissiyasının fəaliyyətindən, Ərazi İdarəetmə və İnfrastruktur Nazirliyinin yay daşqınlarının nəticələrinin aradan qaldırılmasında gördüyü işin keyfiyyətindən narazı olması fonunda bu, kifayət qədər məntiqlidir. Seçkilərə az qalıb və Nikol Paşinyan ictimai əhval-ruhiyyəyə cavab verməlidir və bu, ümidvericidir- bu, administrasiyanın seçkidə uğur qazanacağına ümidlərini bədnam inzibati resursdan sui-istifadəyə deyil, seçicilərin dəstəyinə bağladığını göstərir”- politoloq deyib.

Rusiyayönlü fiqurlara gəlincə, o deyir ki, onlar Paşinyan administrasiyasında yaxşı təmsil olunurlar.

”Bu, ilk növbədə, baş nazirin müavini Mher Qriqoryandır ki, onun ictimai reytinqinin çox aşağı olmasına baxmayaraq, Paşinyan inadla onu öz postunda saxlayır. Digəri uzun illər prezident Robert Köçəryanın əsas müttəfiqi- onun administrasiyasının rəhbəri olmuş baş nazirin təcrübəli köməkçisi Artaşes Tumanyandır. Deməli, əslində ”Rusiya-Ermənistan münasibətlərində mənfi nəticələrə” gətirib çıxaran Paşinyanın kadr siyasəti deyil, hakimiyyətə qayıtmaq ümidlərini Moskvanın köməyinə bağlayan körpə parlament müxalifətinin ”təbii fırıldaqçılığı”dır. Bu siyasət altı ildir davam edir və heç də uğursuz deyil! Kreml Nikol Paşinyanı tənqid edir və deyir ki, ”filankəs Moskvaya xəyanət edir, biz Paşinyanı hakimiyyətdən məhrum edib, siyasi kursu bizə qaytarmalıyıq”. Bu, acınacaqlı mənzərədir...” Hovannisyan bildirir.

## ”Çox güman ki, bu, Qərb paytaxtlarının məsləhəti ilə edilir”

Beynəlxalq məsələlər üzrə ekspert, Cənubi Qafqaz politoloqlar klubunun rəhbəri İlqar Vəlizadə xatırladır ki, bu, qonşu ölkədə rusiyayönlü məmurların ilk belə istefası deyil.

”İlin əvvəlində Ermənistan İqtisadiyyat Nazirliyinin rəsmiləri ilə bağlı qalmaqal yaşanmışdı. İşdən çıxarılanlar da oldu və bunların arasında karyera yüksəlişinə Rusiya strukturlarında başlayan, yəni Rusiya Federasiyasında işləyən insanlar da var idi. Bunun təsadüf olub-olmaması və ya düşünülmüş siyasət olmasından asılı olmayaraq, yalnız spekulyasiya etmək olar, lakin Ermənistanda anti-Rusiya əhval-ruhiyyəsinin artdığı, iki ölkə arasında siyasi münasibətlərin gərgin olaraq qaldığı bir şəraitdə heç nəyi istisna etmək olmaz”- analitik əmindir.

Digər tərəfdən, o qeyd edib ki, ötən gün Caliber.Az diplomatik mənbələrə istinadən Ermənistan Respublikası Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın dövlət orqanlarında təmizlənmə prosesinin həyata keçirilməsinə məsul olan dövlət orqanlarında aparılan təmizləmələrə dair sözlərinə istinadən yazı dərc edib. Ermənistanda təhlükəsizlik üçün bu siyasət davam edəcək.

”Təbii ki, bu kampaniyada əsas diqqət Rusiya ilə bağlı olan və ya bu ölkədə iş karyerasına başlayan kadrlara yönələcək. Ümumiləşdirsək deyə bilərik ki, çox güman ki, bu proses indiki hakimiyyət dövründə daimi olacaq. Bu prosesi müxtəlif çərçivələrdə qurmaq olar, lakin Ermənistan tərəfinin Rusiyanın dövlət aparatında belə müstəsna təsirini azaldacağı göz qabağındadır. Çox güman ki, bu, o cümlədən Qərb paytaxtlarının məsləhəti ilə edilir”, - Vəlizadə qeyd edib.



***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
18 oktyabr
2024-cü il

# 18 aya qədər uşağın yatağı ayrılmalıdır - SƏBƏBİ BU İMİŞ



AYDINLIQ GƏTİRİLDİ

"9 yaşdan sonra uşaqlarda cinsi yetişkənlik yaşı başlayır. Bu yaşdan etibarən uşaqların, özünü oğlan və ya qız kimi kəşf etmə dönəmi başlayır. Ancaq bunu da qeyd etmək lazımdır ki, cinsiyyət ayırımı və özünü dərk etməyə başlaması 3 yaş və bundan sonrakı mərhələni əhatə edir. Çünki, 3 yaşına qədər uşaqlar qadın və kişi ayırımını, cinsləri göstərə bilmirlər. Bu yaşda uşaqların çəkdiyi şəkillərə nəzər yetirsək dairə, baş göz, ağız tipli şəkillər görə bilərik. Bu yaşda uşaqlar adətən bədən üzvləri çəkmirlər. Həmçinin 3 yaşa qədər uşaqların bezlərdən çıxması da vacibdir". Bu sözləri SİA-ya açıqlamasında Amerika Beynəlxalq Nevrorequlyasiya və tədqiqatlar Dərnəyinin rəsmi Azərbaycan təmsilçisi, Psixologiya Elmi-Tədqiqat İnstitutunun elmi işçisi, Uzman-Klinik psixoloq Narınc Rüstəmova deyib.

O bildirib ki, bir çox uşaqlarda özünün kəşf etmə, cinsi kimliyini kəşf etmə tualet təlimi ilə də başlaya bilir. Uşaqlar bezdən çıxıb, güvəcdə oturduqda cinsi kimliyini kəşf edə bilir: "Bu yaş dönəmində və sonra da uşaqların "Ana mən necə dünyaya gəlmişəm?" tipli suallar verməsi, orqanlarını tanımağa başlaması, cinsiyyət orqanı barədə suallar verməsi anormal hal deyil. Bəzən valideynlər bu suallar qarşısında susur, belə sullarından yayınır. Həmçinin bəzi valideynlərin bu suallar qarşısında aqressiv reaksiya verdiyini də görə bilərik. Ancaq bildirmək lazımdır ki, bu da doğru yanaşma üsulu deyil. Uşaqlara belə sualları onların anlayacağı, başa düşəcəyi şəkildə daha çox isə oyun şəklində, nağıl formasında izah etmək lazımdır. Digər məsələ, istər ana, istər ata uşağa ondan icazə almadan toxunmamalıdırlar. Eyni zamanda bildirmək lazımdır ki, ən gec 18 aya qədər uşağın yatağı ayrılmalıdır.

Həmçinin uşağın paltarını dəyişəndə, ona toxunanda, onu öpəndə ondan icazə alınmalıdır. Belə olmadıqda gələcəkdə ona toxunulduqda donub qalacaq, heç bir şey edə bilməyəcək. Bir sözlə, belə uşaqların özünü qoruması tanıma dönəmində çətinləşir. Çünki,belə uşaqlarda toxunulmazlıq anlayışı formalaşmır. Əksinə, az öncə qeyd etdiyim ki, icazə aldıqda uşaq onun məhrəm hissələrinin toxunulmaz olduğunu anlaycaq və yad insanların ona yaxınlaşmasına icazə verməyəcək, özünü qoruya biləcək. Ona görə də, bu fikirləri kiçik yaşdan etibarən uşaqlara aşılamaq, məhrəmiyyət anlayışını formalaşdırmaq lazımdır. Bu nüanslar cinsi tərbiyədə mühüm rol oynayır".

*Səbinə Hüseynli*

"SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Gəncədə cibgir saxlanılıb



***Gəncə Şəhər Baş Polis İdarəsinin əməkdaşlarının keçirdikləri müvafiq tədbirlər nəticəsində ictimai nəqliyyatdan cibgirlik etməkdə şübhəli bilinən, şəhər sakini, əvvəllər məhkum olunmuş Rövşən İsmayılov saxlanılıb. SİA xəbər verir ki, araşdırmalar zamanı məlum olub ki, R.İsmayılov şəhərdaxili marşrutların birində vətəndaşın cibindən 200 manat nağd pul və bir ədəd mobil telefon oğurlayıb.***

Bundan başqa şübhəli şəxs saxlanılan zaman üzərindən narkotik maddə olan metamfetamin də aşkarlanıb. Faktla bağlı araşdırmalar davam etdirilir.

# Diqqət: qızılın qiyməti 2 700 dollara yaxınlaşıb



Nyu-Yorkun COMEX əmtəə birjasında qızılın bir troya unsiyasının qiyməti 0,2% artaraq 2 696,6 ABŞ dollarına bərabər olub. SİA birja məlumatlarına istinadən xəbər verir ki, COMEX-də gümüşün bir unsiyasının qiyməti də 0,5% aztaraq 31,82 ABŞ dollarına bərabər olub.

# Mbappe ŞOKDA - 6 ilədək həbs oluna bilər...



"Real"ın hücumçusu Kilian Mbappe İsveç qanunlarına görə 6 ilə qədər həbs cəzası ala bilər. QOL.az xəbər verir ki, bu barədə "Cerfia" məlumat yayıb. Bu cəza ittiham tərəfi fransalı forvardın zorlamada günahkar olduğunu sübut edəcəyi təqdirdə baş verəcək.

Qeyd olunur ki, Mbappenin adı faktiki olaraq işdə şübhəli şəxs kimi keçir. Daha əvvəl məlum olmuşdu ki, İsveç polisi Mbappenin təqsirləndirildiyi təcavüz işi ilə bağlı araşdırmaya başlayıb.

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 2700